27 aprel 2022 №31 (1904)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan danışıqlara hazırdır

### Ermənistan isə yolların açılması ilə bağlı işlərə hələ başlamayıb



Dəmiryolunun Azərbaycan ərazisində artıq 60 kilometrlik hissəsin tikilib və gələn il tikinti tamamlanacaq. Avtomobil yolu ilə də bağlı Azərbaycan tərəfindən işlər qrafikə tam uyğun şəkildə aparılır. Əfsuslar olsun ki, Ermənistan tərəfindən bunlarla bağlı heç bir işə başlanılmayıb.

Prezident İlham Əliyev bu sözləri aprelin 26-da Rusiya Federasiyası Baş nazirinin müavini, Azərbaycan-Ermənistan üçtərəfli komissiyasının həmsədri Aleksey Overçuku qəbul edərkən deyib.

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, Ermənistan öz ərazisindən keçməsi nəzərdə tutulan avtomobil yolu marşrutunun coğrafi koordinatlarını belə qeyd etməyib. Azərbaycanın bu məsələni dəfələrlə qaldırmasına baxmayaraq, Ermənistan tərəfindən bununla bağlı heç bir cavab gəlməyib.

Prezident Aleksey Overçukun səfəri zamanı üçtərəfli komissiyanın fəaliyyətinin və ilk növbədə, nəqliyyat-kommunikasiya xətlərinin açılması məsələlərinin müzakirə ediləcəyinə əminliyini ifadə edib.

Qeyd edək ki, bir gün öncə, aprelin 25-də Prezident İlham Əliyevin Rusiya Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev ilə görüşündə iki ölkə arasında münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası və demarkasiyası, Azərbaycan tərəfinin təqdim etdiyi 5 prinsip əsasında sülh müqaviləsinin hazırlanması məsələləri müzakirə olunub.

Prezident sülh müqaviləsinin hazırlanması üzrə Azərbaycan nümayəndə heyətinin və sərhədlərin delimitasiyası və demarkasiyası üzrə Azərbaycan milli komissiyasının tərkibinin müəyyən edildiyini vurğulayaraq, ölkəmizin Ermənistanla danışıqlara hazır olduğunu qeyd edib.

## Ölkəmizin hər guşəsindəki zəngin tarixi-mədəni irsi dünyaya layiqincə tanıtmalıyıq

Bu diyarın hansı səmtinə üz tutsaq, orada bir tarix var. Burada bizim kimliyimizi təsdiq edən çoxəsrlik nümunələr var. Bu faktlar Azərbaycanın necə qədim tarixə malik olduğunu bir daha göstərir. Bu abidələri, bu nümunələri qorumalıyıq, təbliğ etməliyik, dünyaya tanıtmalıyıq ki, bütün dünya bilsin, burada bizim ulularımızın ayaq izləri var.



Mədəniyyət naziri Anar Kərimov bu sözləri Naxçıvan Muxtar Respublikasına səfəri zamanı jurnalistlərə müsahibəsində deyib.

Nazir vurğulayıb ki, Naxçıvan Azərbaycan mədəniyyətinin inkişafına böyük töhfələr verən, tarixi-mədəni irsinin zənginliyi ilə seçilən bölgəmizdir.

Səfər barədə danışan Anar Kərimov qeyd edib ki, məqsədimiz bu diyarın tarixi-mədəni irsini, zəngin adət-ənənələrini təbliğ etmək, beynəlxalq aləmə çatdırmaqdan ibarətdir. Nazir diqqətə çatdırıb ki, bu işin təməli 2018-ci ildə "Yallı" ("Köçəri", "Tənzərə"): Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiya faylının UNESCO-nun siyahısına daxil edilməsi ilə qoyulub: "Beləliklə, bu rəqslər dünyaya bəşəri bir irs kimi tanıdıldı. Hesab edirik ki, bu, bir başlanğıcdır. Çünki Naxçıvanın o qədər zəngin mədəniyyəti var ki, doğrudan da, bu diyarın bütün dünyada tanıdılması zəruridir. Məqsədimiz bu irsi həm ölkə daxilində inkişaf etdirib yeni nəsillərə ötürmək, həm də dünyaya çatdırmaqdır. Bu istiqamətdə daha böyük işlər görməyi planlaşdırırıq. Elə bu səfər zamanı da həmin layihələri müzakirə etdik...".

Qeyd edək ki, mədəniyyət naziri Anar Kərimovun Naxçıvan Muxtar Respublikasına səfəri aprelin 25-də başlayıb.

*davamı səh. 2-də*

## Bakıda barokko təntənəsi

Xəbər verdiyimiz kimi, 23-26 aprel tarixində Bakıda Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Barokko günləri" Beynəlxalq Musiqi Festivalı keçirilib.

Qərbi Avropa klassik musiqi tarixində "Barokko dövrü" kimi xarakterizə olunan XVI əsrin sonu – XVIII əsrin birinci yarısı musiqidə müxtəlif bəstəkarlıq üslub və axtarışlarının mövcud olduğu dövrdür. Məhz bundan sonra Avropada klassik (akademik) musiqi tam təşəkkül tapıb.

Aprelin 23-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında alman bəstəkarı K.V.Qlukun "Orfey və Evridika" operasının premyerası ilə başlayan "Barokko günləri" festivalı çərçivəsində sənətsevərlər bu dövrə aid musiqi nümunələrini azərbaycanlı ifaçılarla yanaşı, İtaliya, Türkiyə, Ukrayna və Gürcüstandan olan musiqiçilərin də təqdimatında dinləmək imkanı qazandılar.



Festivalın ikinci axşamında klassik musiqi həvəskarları Azərbaycan Dövlət Akademik Filarmoniyasında Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə "Georgian Sinfonietta" Tbilisi Dövlət Kamera Orkestrinin və azərbaycanlı solistlərin ifasını alqışladılar.

"Barokko dövrünə səyahət" adlı konsert proqramından öncə sənətşünaslıq üzrə fəlsəfə doktoru Jalə Qulamova səhnəyə çıxaraq festivalın önəmindən söz açdı, Barokko dövrü musiqisinin özəlliklərindən bəhs etdi, Bakıda ilk dəfə baş tutan belə bir musiqi bayramı ideyasının müəlliflərinə və təşkilatçılara təşəkkürünü bildirdi. Barokko musiqisinin tarixi və dünya musiqi mədəniyyətində tutduğu yerə nəzər salan sənətşünas bildirdi ki, vokal ifaçılığı öz əsasını məhz bu dövrdən götürür.

*davamı səh. 2-də*




## Ölkəmiz 59-cu Venesiya Biennalesində təmsil olunur

Dünyanın ən mötəbər sənət sərgisi – Venesiya Biennalesi bu il 59-cu dəfə keçirilir. Aprelin 23-də açılan sərgidə Azərbaycan da iştirak edir.

59-cu Venesiya Biennalesi – Beynəlxalq İncəsənət Sərgisində ölkəmiz Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Sevmək üçün doğulanlar" ("Born to love") mövzusunda milli pavilyonla iştirak edir. Venesiya Biennalesi incəsənət xadimləri və həvəskarları üçün səbirsizliklə gözlənilən hadisədir. Çünki bu, dünyanın çağdaş incəsənətində ən nüfuzlu sərgi-aksiyadır. İki ildən bir keçirilən Venesiya Biennalesində ölkəmiz 2007-ci ildən – artıq 8-ci dəfə təmsil olunur.

Şəhərin ən izdihamlı məkanlarından birində – Müqəddəs Mark meydanındakı qədim "Procuratie Vecchie" binasında Azərbaycandan 7 rəssam – Juk (Nərmin İsrafilova), İnfinity, Ramina Səadətxan, Fidan Kim (Novruzova), Fidan Axundova, Sabiha Xankişiyeva, Əqdəs Bağırzadənin əsərləri təqdim edilir.

Rəssam Ramina Səadətxan Venesiya Biennalesinə ilk dəfə qatılıb və bununla fəxr etdiyini deyir.

Fotoqraf-rəssam Əqdəs Bağırzadə biennaledə "The other side of me" ("Mənim digər tərəfim") layihəsi ilə çıxış edir: "Bir azərbaycanlı, bir foto-rəssam kimi mən qürür duyuram ki, bu biennaledə iştirak elədim. Azərbaycanı burada təmsil etmək bizim üçün böyük məsuliyyətdir...".

*davamı səh. 8-də*

## "Arşın mal alan" Daşkənd səhnəsində yeni quruluşda

Daşkənddəki "Didor" teatr studiyası tərəfindən Üzeyir Hacıbəylinin dünyaca məşhur "Arşın mal alan" musiqili komediyası yeni quruluşda tamaşaya qoyulub.

Tamaşanın quruluşçu rejissoru Özbəkistanın Xalq artisti Bahadur Yuldaşev, bədii rəhbəri Babur Yuldaşevdir. Səhnə əsərinin musiqi tərtibatını isə Özbəkistanda tanınan saz ifaçısı, soydaşımız İlham Abdullayev verib. Rolları Ulmaz Urayev, İroda Kasimova, Adiz Racabov, Nazokat Narziyeva, Yulduz Racabova, Maxliye Askaraliyeva və başqaları ifa ediblər.



"Arşın mal alan"ın yeni quruluşda təqdimatında Özbəkistanın mədəniyyət və incəsənət xadimləri, diasporumuzun üzvləri, jurnalistlər iştirak ediblər.

Xatırladırıq ki, "Arşın mal alan" ilk dəfə Özbəkistanda 1919-cu ildə – Daşkənddəki "Kolizey" teatrında tamaşaya qoyulub. Həmin il Bakıdan gələn rejissor Mirzə Həbib Axundzadə Səmərqənddə yaşayan azərbaycanlılardan ibarət teatr truppası yaradıb və əsər bu qədim şəhərdə səhnələşdirilib.

1921-ci ildə əsərə Buxarada səhnə həyatı verilib. 1922-ci ildə isə Daşkəndin "Raxat bağçası" teatrında Sidqi Ruhullanın rəhbərliyi ilə Azərbaycandan gələn aktyorlar "Arşın mal alan"ı təqdim ediblər. Sonrakı illərdə "Arşın mal alan" dəfələrlə Daşkənd, Fərqanə, Buxara, Kokand, Xarəzm, Səmərqənd şəhərlərində tamaşaçılara təqdim olunub.

Üzeyir Hacıbəylinin ölməz əsəri Orta Asiyada ən məşhur tamaşa kimi səhnədən düşmür. Bir neçə il əvvəl Daşkənddəki Operetta Teatrı "Arşın mal alan"ı rus dilində də tamaşaya qoymuşdu.

## "Yeni adlar" layihəsində gənc tarzənlər səhnəyə çıxdı

Mədəniyyət Nazirliyi tərəfindən bu ilin mart ayından həyata keçirilən "Yeni adlar" layihəsi davam edir. Gənc musiqiçilərin tanınmış dirijorların rəhbərliyi altında simfonik, kamera və xalq çalğı alətləri orkestrləri ilə mötəbər konsert zallarında ifasına şərait yaradılması onların böyük sənət yolunda addımları üçün mühüm stimuldur.



Aprelin 20-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında layihə üzrə növbəti musiqi axşamı gerçəkləşdi. Azərbaycan Milli Konservatoriyasının məzunları olan tarzənlər, respublika və beynəlxalq müsabiqələr laureatları İbrahim Babayev və Atabəy İsmayılovun iştirakı ilə konsert proqramı təqdim olundu.

*davamı səh. 5-də*

## "Təsviri sənətə səyahət"

Mədəniyyət Nazirliyi və "Four Seasons Hotel Baku"nun birgə təşkilatçılığı ilə 29-30 aprel tarixlərində "Təsviri sənətə səyahət" adlı satış-sərgi keçiriləcək.

Tədbirin təşkilində başlıca məqsəd gənc istedadlara maddi və mənəvi dəstəyin göstərilməsi, onların yaradıcılığının geniş ictimaiyyətə təqdim edilməsidir. Sərgidə rəngkarlıq, heykəltəraşlıq, keramika, qobelen və digər nümunələrin satışı keçiriləcək.

"Təsviri sənətə səyahət" satış-sərgisi istedadlı şəxslərin geniş kütlələrə tanıdılmasını və xüsusilə COVİD-19 pandemiyası səbəbindən müəyyən çətinliklərlə üzləşən yaradıcı sənayelərin dəstəklənməsi baxımından xüsusilə əhəmiyyət kəsb edir.

Tədbirdə dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi məsələləri də müzakirə olunacaq.

Mədəni kənd – mədəni mühit



səh. 4

Kino Agentliyi Mədəniyyət Nazirliyinin tabeliyindəki kinematoqrafiya müəssisələrini idarə edəcək

səh. 2



Günahın hamısı marazmdadır...

səh. 5

№31 (1904)
27 aprel 2022
www.medeniyyet.az

# Azərbaycan Respublikasının Kino Agentliyi yaradılır

Azərbaycan Respublikasında kinematoqrafiya sahəsində dövlət siyasətinin həyata keçirilməsinin təkmilləşdirilməsi, milli kinematoqrafiyaya dünyada rəqabət imkanlarının təmin edilməsi, kino istehsalı və yayımı infrastrukturunun müasirləşdirilməsi məqsədilə yeni qurum – Azərbaycan Respublikasının Kino Agentliyi yaradılır.

Prezident İlham Əliyev aprelin 20-də bununla bağlı fərman imzalayıb.

Fərmana əsasən, Azərbaycan Respublikasının Kino Agentliyi Mədəniyyət Nazirliyinin tabeliyində publik hüquqi şəxs olacaq. Agentlik Azərbaycan Respublikasında kinematoqrafiyanın inkişafının, o cümlədən yerli və müştərək kino istehsalının dəstəklənməsi, kino mədəniyyətinin təbliğinin təşkili, kinematoqrafiya müəssisələrinin və kino sənayesi iştirakçılarının fəaliyyətinin stimullaşdırılması, Azərbaycan kinematoqrafiyasının dünya kinematoqrafiyasına inteqrasiyası sahələrində fəaliyyət göstərməklə yanaşı, nazirliyin tabeliyindəki kinematoqrafiya müəssisələrini idarə edəcək və onların fəaliyyətinə nəzarəti həyata keçirəcək.

Agentliyin fəaliyyətinə rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr və onun iki müavini daxil olmaqla üç üzvdən ibarət Müşahidə Şurası yaradılır. Agentliyin fəaliyyətinə cari rəhbərliyi baş direktor həyata keçirir.

Fərmanda Nazirlər Kabinetinə 2 ay müddətində Kino Agentliyinin nizamnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

# Əhməd Cavadın 130 illiyi qeyd ediləcək

2022-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycan xalqının istiqlal mübarizəsinə layiqli töhfələr vermiş vətənpərvər şair, ictimai xadim Əhməd Cavadın (Cavad Məhəmmədəli oğlu Axundzadənin) anadan olmasının 130 illiyi tamam olur.

Prezident İlham Əliyev aprelin 20-də Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikir tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Azərbaycanın dövlət rəmzlərini yüksək şeriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir.

Sərəncamda Mədəniyyət Nazirliyinə Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Əhməd Cavadın 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

# Bakıda barokko təntənəsi

əvvəli səh. 1-də

Festivalın iştirakçısı olan kollektivlər və solistlər barədə də qısa məlumat verən musiqişünas 2008-ci ildə yaradılan Tbilisi Dövlət Kamera Orkestrinin nüfuzlu musiqi tədbirlərində uğur qazandığını, 2012-ci ildən Barokko dövrünə aid musiqi alətlərini əldə etdiyini və Qafqazda ilk Barokko orkestri olduğunu dedi.



Sonra Barokko əzəmətinin ehtiva olunduğu proqram başlandı. Əyyub Quliyevin idarə etdiyi orkestrin müşayiətində Əməkdar artistlər İlham Nəzərov və Fəridə Məmmədova, eləcə də istedadlı vokalçı Səbinə Əsədovanın ifaları rəğbətlə qarşılandı.

Barokkonun seçkin musiqi müəllifləri – Marin Marais, Antanio Vivaldi, Rikardo Broski, Georq Hendel və başqa görkəmli bəstəkarların fərqli üslublarda əsərlərindən parçalar dövrün musiqi alətlərinin zəngin polifonik səslənməsində dinləyicilərə xoş anlar bəxş etdi.

Bəli, sənətin ən əsrarəngiz dövrlərindən birinə olan məhəbbətin bu günə qədər davam etməsi, daha doğrusu, getdikcə artması, müxtəlif ruhlara, düşüncələrə və sənət qatlarına nüfuz etməsi musiqinin ecazkar qüvvə olduğunun izahıdır.

İki şöbəli konserti keçidlərlə təqdim edən musiqiçilər kimi dinləyicilər də yüksək ovqatda idilər. Sonsuz cəsarət, zəriflik və bunlarla vəhdətdə əzəmətin nümayişi olan konsert proqramı sürəkli alqışlarla başa çatdı.

**Həmidə**

# Beynəlxalq Caz Günü münasibətilə silsilə tədbirlər keçiriləcək

30 aprel Beynəlxalq Caz Günüdür (İnternational Jazz Day). Bu gün 2011-ci ildə UNESCO tərəfindən caz musiqisinin sülh, birlik və dialoqun, insanlar arasında ünsiyyətin genişləndirilməsində rolunu diqqətə çatdırmaq məqsədilə təsis olunub.

UNESCO-nun sülhməramlı səfiri, dünya şöhrətli caz pianoçusu Hörbi Hənkokun təşəbbüsü ilə təsis olunan Beynəlxalq Caz Günü 2012-ci ildən etibarən dünyanın bir çox ölkələrində qeyd olunur. Azərbaycan da həmin ildən bu dünya əhəmiyyətli caz hadisəsinə qoşulub. H.Hənkok Azərbaycanın Əməkdar artisti, tanınmış pianoçu İsfar Sarabskini 2012-ci ildə ilk caz forumuna dəvət edib. 2015-ci ildə Parisdə baş tutmuş Beynəlxalq Caz Günündə ölkəmizi İsfar Sarabski, gənc pianoçu Etibar Əsədli, Əməkdar artist Ruslan Hüseynov, Elvin Bəşirov və Xalq artisti Mircavad Cəfərovun rəhbərlik etdiyi "Cəngi" folk-estrada qrupu təmsil edib.

2017-ci ildən etibarən Mədəniyyət Nazirliyinin və bir sıra şirkətlər qrupunun təşkilatçılığı altında Bakıda Beynəlxalq Caz Günü qeyd olunur.

Bu il də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Beynəlxalq Caz Günü silsilə tədbirlərlə qeyd ediləcək.

29 aprel – 2 may tarixlərində Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı və Beynəlxalq Muğam Mərkəzində Azərbaycan cazmenlərinin iştirakı ilə konsertlər təqdim olunacaq.

# Ölkəmizin hər guşəsindəki zəngin tarixi-mədəni irsi dünyaya layiqincə tanıtmalıyıq

## Mədəniyyət naziri Anar Kərimov Naxçıvan Muxtar Respublikasına səfər edib

əvvəli səh. 1-də

Nazirin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək önünə çiçək dəstələri düzüb.

Sonra Heydər Əliyev Muzeyinə ziyarət təşkil olunub. Muzeydə ümummilli lider Heydər Əliyevin həyatının müxtəlif dövrünə, o cümlədən Naxçıvanda keçən uşaqlıq və gənclik illərinə həsr olunmuş zəngin stendlər var.



Həmin gün Anar Kərimovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovla görüşü olub. Görüşdə Azərbaycanın tarixi, mədəniyyəti üçün əhəmiyyətli olan tədbirlərin həyata keçirilməsi, əməkdaşlığın möhkəmləndirilməsi, birgə layihələrin reallaşdırılması imkanı müzakirə olunub. Həmçinin Naxçıvanın dahi şəxsiyyətləri, zəngin mədəni irsi və tarixi abidələrindən söhbət açılıb.





Görüşün sonunda Anar Kərimov "Yallı" ("Köçəri", "Tənzərə"): Naxçıvanın ənənəvi qrup rəqsləri"nin UNESCO-nun siyahısına salınmasını təsdiqləyən sertifikatı Vasif Talıbova təqdim edib.

Nazir Anar Kərimov və nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasının mədəniyyət müəssisələrinə baş çəkib.

Naxçıvan Dövlət Xalça Muzeyi ilə tanışlıq zamanı bildirilib ki, muzeyin daimi ekspozisiyasında xovlu və xovsuz xalçalar, müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, mis və saxsı qablar nümayiş etdirilir. Muzeydə nümayiş etdirilən nümunələr üçün müasir qoruma standartlarına uyğun şərait yaradılıb. Naxçıvan Dövlət Xalça Muzeyində xalçaçılıqla bağlı müxtəlif tədbirlər, kitab təqdimatları, elmi konfranslar gerçəkləşir.

"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə xatın və Açıq Səma Altında Muzey Kompleksi ziyarətçilərdə Naxçıvanın zəngin tarixinin bir çox səhifələri haqqında dolğun təsəvvür yaradır. Bildirilib ki, memarlıq kompleksi bölgəyə xarici ölkələrdən gələn turistlər tərəfindən də böyük həvəslə ziyarət olunur.

Anar Kərimov "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə də tanış olub. Kompleksdə yaradılmış arxeoloji-etnoqrafik sərgidə eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatları, mis qab və alətlər, qəbirüstü abidələr, silahlar nümayiş olunur.

Ziyarət zamanı "Şərur" Xalq Yallı Ansamblının ifasında "Köçəri" və "Tənzərə" rəqsləri alqışlarla qarşılanıb.

Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti daha sonra Naxçıvan şəhər Uşaq musiqi və incəsənət məktəbində olub. Qeyd olunub ki, məktəbdə şagirdlərdən ibarət müxtəlif ansambllar fəaliyyət göstərir. Yaradılan şəraitin nəticəsidir ki, bu gün muxtar respublikadakı uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri ölkəmizdə, eləcə də beynəlxalq miqyasda keçirilən müsabiqələrdə uğurla iştirak edir.

Səfər çərçivəsində Naxçıvanın nadir memarlıq abidələrindən olan Yusif Küseyir oğlu türbəsi də ziyarət olunub. Türbə yeraltı sərdabədən və yerüstü türbədən ibarətdir. Qeyd olunub ki, bu, ölkəmizdə qülləvarı türbələr içərisində üst piramida örtüyü olduğu kimi bu günə qədər qalan yeganə abidədir.

Səfər çərçivəsində Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Yallı" ("Köçəri", "Tənzərə"): Naxçıvanın ənənəvi qrup rəqsləri"nin UNESCO-nun siyahısına daxil edildiyini təsdiqləyən sertifikatın təqdimatı da keçirilib.

Əvvəlcə "Şərur" Xalq Yallı Ansamblının ifasında "Köçəri" və "Tənzərə" yallıları ifa olunub.

Muxtar respublikanın mədəniyyət naziri Natəvan Qədimova Naxçıvanda yallı sənətinin qorunması və inkişaf etdirilməsi istiqamətində görülən işlər, muxtar respublika Ali Məclisi sədrinin bu sahəyə diqqət və qayğısı barədə danışıb. Bildirib ki, yallılar ilk dəfə nota köçürülüb, onun əsasında "Naxçıvan – Şərur el yallıları" kitabı nəşr olunub. Gəmiqaya abidələrində həkk olunan kütləvi rəqs elementləri Naxçıvanda yallı sənətinin çox qədim tarixə malik olduğundan xəbər verir. Muxtar respublikada yallı qrupları, xüsusilə də "Şərur" Xalq Yallı Ansamblı bu irsi yaşadır və təbliğ edir. Şərur yallılarının 90-dan çox növü var. Onların da 40-a yaxını ansamblın repertuarına daxil edilib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov çıxışında qeyd edib ki, 2018-ci il 26 noyabr – 1 dekabr tarixlərində Mavriki Respublikasının Port Luis şəhərində keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında qəbul edilən qərarla "Yallı" ("Köçəri", "Tənzərə"): Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili qorunma siyahısına daxil edilib. Bununla da Şərur yallılarının beynəlxalq müstəvidə tanıdılması və təbliğinə şərait yaranıb.

Bildirilib ki, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında mədəniyyətimizin inkişafı və təbliğinə xüsusi diqqət yetirilir, bu sahədə ardıcıl tədbirlər görülür. Qeyd olunub ki, Şərur yallıları xalqımızın tarixi, etnoqrafiyası, mərasimləri, mifoloji inancları, adət-ənənələri və ifaçılıq mədəniyyəti ilə sıx bağlı şəkildə inkişaf edib. Anar Kərimov Bakıda keçiriləcək folklor festivallarında Naxçıvan folklorunun da təbliğ olunmasının vacibliyini vurğulayıb. Bildirib ki, bu həm Bakı sakinlərinə Naxçıvanın zəngin mədəniyyətini tanıdacaq, həm də Naxçıvan folklor qrupları üçün stimul olacaq.

Çıxışının sonunda Anar Kərimov "Yallı" ("Köçəri", "Tənzərə"): Naxçıvanın ənənəvi qrup rəqsləri"nin UNESCO-nun siyahısında yer aldığını təsdiqləyən sertifikatı muxtar respublikanın mədəniyyət naziri Natəvan Qədimovaya təqdim edib.

***

Mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi heyət muxtar respublikaya səfər çərçivəsində aprelin 26-da Ordubad rayonunda olub. Ordubad Cümə məscidi ilə tanışlıq zamanı burada aparılan bərpa işləri barədə məlumat verilib. Bildirilib ki, məscidin memarlığı XVII-XVIII əsrlərə aid abidələrin başlıca cəhətlərini özündə əks etdirir.

Anar Kərimov Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinə də baş çəkib. Məlumat verilib ki, 1982-ci ildə yaradılan muzey 1990-cı ildən XVII əsrə aid tarixi-memarlıq abidəsi olan "Qeysəriyyə" binasında fəaliyyətini davam etdirir. 2011-ci ildə "Qeysəriyyə" binası əsaslı şəkildə bərpa olunub. 150 eksponatla fəaliyyətə başlayan muzeydə hazırda 4 mindən artıq eksponat mühafizə və nümayiş olunur.

Nazirliyin heyəti daha sonra Azərbaycan elminin görkəmli nümayəndələrindən biri, dünya şöhrətli kimyaçı alim, akademik Yusuf Məmmədəliyevin Ordubaddakı ev-muzeyini ziyarət edib. Bildirilib ki, muzey 1975-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Ziyarət zamanı Yusuf Məmmədəliyevin qızı – mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva akademikin uşaqlıq, tələbəlik illəri, həyat və yaradıcılığı, elmi araşdırmaları barədə məlumat verib.

Anar Kərimov və nazirliyin heyəti Ordubadın əsas məscidlərindən olan Sərşəhər məscidinə də baş çəkib. Naxçıvanın incilərindən sayılan XVII əsrin yadigarı Sərşəhər çeşməsi və Xan kəhrizi də ziyarət olunub.

Naxçıvana səfər "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi (Culfa rayonu) və Azərbaycan Orta əsr memarlığının ən qiymətli yadigarlarından olan Qarabağlar Türbə Kompleksinə (Kəngərli rayonu) ziyarətlə yekunlaşıb.

# "Bu musiqi insanı xoşbəxt edir..."

## "Barokko günləri" festivalı çərçivəsində ustad dərsi

Aprelin 25-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Qara Qarayev adına zalında dünya şöhrətli italyan musiqiçi, Roma, San-Karlo və digər opera teatrlarının bədii rəhbəri olmuş, "Akkademia D'arte Lirika"nın direktoru, professor Vinçenzo de Vivonun ustad dərsi keçirildi. Ustad dərsi Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakıda təşkil olunan "Barokko günləri" Beynəlxalq Musiqi Festivalı çərçivəsində gerçəkləşdi.

BMA-nın beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru, Xalq artisti Yeganə Axundova festival və qonaq haqqında məlumat verdi.

Təhsil ocağının Solo oxuma və opera hazırlığı kafedrasının müdiri, Xalq artisti, professor Xuraman Qasımova ustad dərsinin təşkilinin əhəmiyyətini qeyd etdi. Bildirdi ki, tədbirdə çox böyük maraq və hərəkətlilik hiss olunur: "Tələbələr böyük həvəslə öz səs və istedadlarını nümayiş etdirmək üçün qatılıblar. İnanıram ki, bu günə kimi Vinçenzo de Vivonun rəhbərlik etdiyi teatrlarda bizim gənc opera ifaçıları necə bəyənilibsə, bu gün müəllim və tələbə heyətimiz də öz məharətini nümayiş etdirəcək".



İtalyan musiqiçi ustad dərsinə başlamazdan əvvəl təəssüratlarını öyrənirik. Vinçenzo de Vivo "Barokko günləri" festivalının Azərbaycan musiqi sənəti üçün möhtəşəm təcrübə olduğunu qeyd edir: "Barokko musiqisinin ritmi, verdiyi təəssürat çox gözəldir. Həm də insanı xoşbəxt edir. Bu, Bakıya ilk gəlişimdir və Azərbaycan mədəniyyətinə heyran qaldım. Onu da qeyd edim ki, Azərbaycandan olan gənc vokal ifaçıları bizim məktəblərdə təhsil alırlar. Onlar çox böyük zəhmətlə uğur əldə ediblər və bu zəhmətin və istedadın özülü Bakı Musiqi Akademiyasında qoyulub. Bu məkanda ustad dərsi keçmək mənim üçün çox xoşdur. Tələbələr bir şeyi unutmamalıdırlar ki, onların vokal hazırlıqları məşqlərdən və müəllimlərindən çox asılıdır. Barokko musiqisi ilə müasir dövr bəstəkarlığında texnikalar demək olar eynidir. Elə səsimiz də eynidir. Sadəcə, onun istifadəsi dəyişilir. Yəni fərqli səslənmə düşüncəsi yaranır. İfa etməzdən əvvəl düşünməliyik ki, biz bu səsdən nə istəyirik, tələbimiz nədir? Əlbəttə ki, barokko musiqisində, əsərdə sözlərin musiqi qədər önəmi var. Barokkoda sözlərin tələffüzü çox əhəmiyyətlidir. İtalyan dilində dairələnmiş səs quruluşu var. Cümlələrin birləşməsində samit səslərin əvəzlənməsi mühümdür. Bu gün ustad dərsinə qatılanlar çox olduğu üçün əsərlərdən müəyyən parçalar və müxtəlif əsərlər üzərində nümunələrlə özümüzü sınaqdan keçirəcəyik".

Ustad dərsində Xalq artistləri Xuraman Qasımova, Gülnaz İsmayılova və Əməkdar artist, festivalın bədii rəhbəri İlham Nəzərovun tələbələri, həmçinin BMA-nın əvvəlki məzunları iştirak edirdi.

Vinçenzo de Vivo hər bir tələbəyə fərdi yanaşaraq öz tövsiyələrini verdi. O, əsərləri ifa edərkən həmin dövrün bədii üslub xüsusiyyətlərini, bəstəkarların yaradıcılığını yaxından öyrənməyi, ifa zamanı düzgün nəfəs və diapazon, sözlərin düzgün tələffüzünün əhəmiyyətini vurğuladı. Ustad dərsi tələbə və müəllimlərin italyan qonaqla fikir mübadiləsi ilə davam etdi.

**Lalə Azəri**

# İki cəbhədə – səhnə və səngərdə

## “Bu savaşa sizləri göndərən də milli kimliyə, kökə bağlılıq idi...”

“Vətən müharibəsində qalibiyyətdən sonra bütün dünya Azərbaycan xalqının böyüklüyünü, möhtərəm Prezidentimizin diplomatik uğurlarını, Ali Baş Komandan kimi səriştəsini, Ordumuzun qüdrətini gördü. Xalqımızın müharibə dönəmində və ondan sonrakı dövrdə bir yumruq şəklində birləşməsi gələcək nəsillər üçün həqiqi örnəkdir...”.






Mədəniyyət naziri Anar Kərimov bu fikirləri Vətən müharibəsinin iştirakçısı olmuş mədəniyyət işçiləri ilə görüşdə dedi. Aprelin 20-də Beynəlxalq Muğam Mərkəzində keçirilən görüş Mədəniyyət Nazirliyinin “Səhnədən səngərə: qazilər” layihəsi çərçivəsində təşkil olunmuşdu.

Nazirliyin Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə tədbiri açaraq “Səhnədən səngərə” layihəsi haqqında ətraflı məlumat verdi. Bildirdi ki, 44 günlük Vətən müharibəsində tarixi Qələbənin əldə edilməsində misilsiz fədakarlıq göstərən, ölkəmizin ərazi bütövlüyü yolunda sağlamlığını fəda edən, xalqımıza sonsuz sevinc və qürur hissləri yaşadan şəhid və qazilərimiz hər bir azərbaycanlının qəlbində taxt qurub: “Vətən müharibəsində şəhid olmuş qəhrəman mədəniyyət işçilərinin xatirəsini əbədiləşdirmək məqsədilə nazirlik tərəfindən “Səhnədən səngərə: şəhidlər” layihəsi həyata keçirilib. Layihə üzrə mədəniyyət işçilərindən 8 nəfər şəhid haqqında ictimaiyyətə geniş məlumat təqdim olunub”.

Şöbə müdiri qeyd etdi ki, Vətən müharibəsində iştirak edən mədəniyyət işçilərindən 12 nəfər qazi kimi adlarını Azərbaycan qəhrəmanlıq salnaməsinə həkk ediblər. Onların ictimaiyyət tərəfindən geniş tanınması məqsədilə nazirlik “Səhnədən səngərə: qazilər” layihəsini gerçəkləşdirib. Layihə çərçivəsində qazi mədəniyyət işçiləri haqqında videoçarxlar hazırlanıb. “Salnaməfilm” studiyası tərəfindən lentə alınan materiallarda onların 44 günlük müharibədə göstərdikləri şücaətdən bəhs olunur, qazilərin ailə üzvləri, döyüş yoldaşları ilə söhbətlər təqdim edilir.

Vətən müharibəsində qazi olmuş mədəniyyət işçilərinin müharibə və Qələbə təəssüratlarını əks etdirən videoçarxın nümayişindən sonra söz mədəniyyət naziri Anar Kərimova verildi.

Vətən müharibəsində Zəfərimizin əsasında dayanan milli birlik faktının önəmini qeyd edən nazir dedi: “Biz mədəniyyətimizə, öz kimliyimizə, öz kökümüzə bağlı xalqıq. Bu savaşa sizləri göndərən də məhz o milli kimliyə, kökə bağlılıq və məsuliyyət oldu. Siz eyni zamanda iki cəbhədə vuruşmusunuz: müharibə vaxtı səngərdə, müharibədən əvvəl və sonra isə mədəniyyət sahəsində. Bu, böyük bir qəhrəmanlıqdır. Hazırda qloballaşma dövründə yaşayırıq və təəssüf ki, dəyərlərin aşınması prosesi gedir. Biz mərdlik, dönməzlik, şücaət kimi anlayışları sizlərin simasında yeni nəsillərə ötürürük”.

Anar Kərimov qazilərə fəxri fərmanlar təqdim etdi.

Tədbirin bədii hissəsində Vətən müharibəsinin iştirakçısı olmuş bəstəkar Vüqar Məmmədzadə kvartet üçün əsəri, opera ifaçısı Ataş Qarayev Asəf Zeynallının “Ölkəm” romansı və rəqqas Firdovsi Eyvazov “Uzundərə” rəqsini təqdim etdilər.

Sonda xatirə şəkilləri çəkdirildi.

**Lalə Azəri**

# Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlığını ifşa edir

## Dünya Kitab və Müəllif Hüquqları Günü münasibətilə vebinar bu mövzuya həsr olunmuşdu

Aprelin 22-də Əqli Mülkiyyət Agentliyi və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan torpaqlarına hay-erməni iddialarının davam etdirilməsi haqqında” mövzusunda vebinar keçirildi. Vebinar 23 aprel – Dünya Kitab və Müəllif Hüquqları Günü münasibətilə təşkil olunmuşdu.

Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri, professor Kamran İmanov qeyd etdi ki, kitablar və əsər müəllifləri keçmişlə gələcək arasında əlaqəni formalaşdırır, məkan və zaman çərçivəsindən kənarda ideya mübadiləsini təmin edir: “Dünya Kitab və Müəllif Hüquqları Gününü qeyd edərkən biz ideya və biliklərin yayıcılarına – naşirlərə, kitab ticarətçilərinə, kitabxanalara və s. lazımi qiymət də veririk. Lakin o da bir həqiqətdir ki, erməni müəllifləri tarixə aid yalanlarla dolu kitablar çap edir və bunlarla erməni sayağı “mənbə” yaradırlar. Bu vebinarı keçirməkdə məqsədimiz erməni saxtakarlığını və uydurmalarını qədim mətnlərə və klassik mənbələrə söykənərək ifşa etməkdir”.

Vebinarda çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirdi ki, ermənilər əsrlər boyu tarixi saxtakarlıqla məşğul olublar: “Təəssüflər olsun ki, ermənilər bir çox Qərb dövlətlərini, onların alimlərini bu saxtakarlığa inandırmağa nail olublar. Erməni saxtakarlığına qarşı ölkəmizdə müəyyən addımlar atılsa da, ancaq qarşıda görüləsi işlər çoxdur. Qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının irsi və sivilizasiyası ilə bağlı Qərbdə əsasən birmənalı bir yanaşma mövcuddur. Bu, ermənilərin maraqlarına uyğun olan bir yanaşmadır. Bu sahədə həqiqətlərin bizim tərəfimizdə olmasına baxmayaraq, biz dünyanı, xüsusi ilə də Qərb alimlərini buna inandıra bilməmişik”.

Nazir vurğuladı ki, Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və Ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi ilə yeni mərhələ başlayıb: “Vətən müharibəsi şanlı Zəfərlə başa çatsa da, informasiya müharibəsi bundan sonra da davam edəcək. Bunu dövlətimizin başçısı da dəfələrlə qeyd edib. Bu informasiya müharibəsində bizim ən vacib alətlərimizdən biri də düzgün, uzunmüddətli və nəticəyönlü strategiyanın müəyyən edilməsidir. Bu strategiyanın tərkib hissələrindən biri də alimlərlə, tarixşünaslarla, etnoqraf və digər mütəxəssislərlə mütəmadi işin aparılmasıdır. Düşünürəm ki, aidiyyəti müəssisələrimiz, o cümlədən Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyi də əlaqələndirici şəkildə bu sahədə proseslərə öz töhfəsini verə bilər”.

Anar Kərimov diqqətə çatdırdı ki, Mədəniyyət Nazirliyi ADA Universiteti ilə birgə müxtəlif ölkələrdən alimləri dəvət etməklə Azərbaycan tarixi, mədəniyyəti, memarlığı sahəsində araşdırma aparmaq üçün müəyyən bir proqram hazırlamağı planlaşdırır: “Bu sahədə müxtəlif ölkələrdən elə gənc araşdırmaçılarla işləmək istəyirik ki, hələ ermənilər saxta miflərlə onların beyinlərini zəhərləməyib. Onlarla əməkdaşlıq gələcəkdə bizə elmi resurslar verəcək. Nəticə etibarilə də biz bunlarla saxta erməni mifologiyasını növbəti dəfə dağıtmağa nail olacağıq. Necə ki, biz 44 günlük müharibə zamanı onların uydurma mifologiyasını dağıtdıq. Amma informasiya mübarizəsində də əlimizdə lazım olan şəbəkələr olmalıdır ki, uğur əldə edək”.

Vebinar AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, tarix üzrə elmlər doktoru, professor Kərim Şükürov, Folklor İnstitutunun baş direktoru, akademik Muxtar İmanov, Prezident Administrasiyasının sektor müdiri Fuad Axundov və digər iştirakçıların çıxışları ilə davam etdi.

**N.Məmmədli**

# Görkəmli rəqqasə haqqında film bərpa olunub






Xalq artisti, görkəmli rəqqasə, baletmeyster və pedaqoq Əminə Dilbazi (1919-2010) haqqında 1992-ci ildə “Azərbaycanfilm” Kinostudiyasında lentə alınan “Prima” sənədli filmi Dövlət Film Fondunda bərpa edilib. Aprelin 22-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində sənədli filmin bərpadan sonra təqdimatı keçirildi.

Tədbiri Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq bildirdi ki, Əminə Dilbazinin adı ölkəmizdə professional və özfəaliyyət rəqs ansamblların yaradılması ilə sıx bağlıdır. O, 1959-cu ildə Azərbaycan Tibb İnstitutunun “Çinar” tələbə rəqs kollektivinə rəhbərlik edib. 1967-ci ildə isə “Sevinc” qızlar ansamblını yaradıb. Sonra zəngin pedaqoji təcrübəsini milli xoreoqrafiyanın inkişafına yönəldib. Xalq rəqslərinin yeni ifaçılar nəslinin hazırlanması sahəsində yorulmadan çalışıb. Bununla da klassik milli rəqslərimizi yeni ifa tərzi ilə zənginləşdirib.

Qeyd olundu ki, görkəmli sənətkarın “Leyli və Məcnun” operasında, “Arşın mal alan” və “O olmasın, bu olsun” operettaları və digər əsərlərdə ifa etdiyi “İnnabı”, “Tərəkəmə”, “Vağzalı-Mirzəyi”, “Turacı”, “Naz eləmə” rəqsləri maraqla qarşılanıb. O həm də “Əzablı yollar”, “Mən mahnı qoşuram”, “Ulduz” və s. filmlərin xoreoqrafı olub.

Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev ekran işi haqqında söz açdı. Dedi ki, film texniki baxımdan yaxşı deyildi. Ona görə də qərara gəldik ki, bərpa olunsun. Filmin bərpası və yenidən nümayişi görkəmli sənətkarın yaradıcılığının təbliği baxımından çox əhəmiyyətlidir.

Cəmil Quliyev filmin rejissoru, Xalq artisti Tofiq İsmayılovdan da danışdı. Qeyd etdi ki, o, bir müddət “Azərbaycanfilm” Kinostudiyasında bədii filmlərin quruluşçu rejissoru vəzifəsində çalışıb. Həm də kinostudiyanın nəzdində fəaliyyət göstərən kinoaktyor teatr studiyasının bədii rəhbəri olub.

Direktor çıxışının sonunda filmin elektron nüsxəsini muzeyə hədiyyə etdi.

Tədbirdə daha sonra filmin rejissoru Tofiq İsmayılovun qızı Sevinc Rzayeva çıxış edərək atasının film üzərindəki yaradıcılıq işindən danışdı. Filmin operatoru, Əməkdar incəsənət xadimi Rafiq Qəmbərov, Əməkdar artist Ötkəm İsgəndərov, Milli Konservatoriyanın professoru Abbasqulu Nəcəfzadə Əminə Dilbazi ilə bağlı xatirələrini bölüşdülər. Qeyd edildi ki, sənətkar uzunmüddətli fəaliyyəti ərzində daim yüksək səhnə mədəniyyəti nümayiş etdirib. Bənzərsiz ifaçılığı ilə xalq rəqslərini zənginləşdirib.

Əminə Dilbazinin oğlu Mikayıl Hacıyev çıxış edərək ailələri adından tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

Tədbir “Prima” sənədli filminin bərpa olunmuş yeni variantının nümayişi ilə başa çatdı.

**Savalan Fərəcov**

# Mədəniyyət Nazirliyində italiyalı musiqi xadimi ilə görüş

Bakıda keçirilən “Barokko günləri” Beynəlxalq Musiqi Festivalına italiyalı tanınmış musiqi xadimi, professor Vinçenzo de Vivo da qatılıb.

Barokko dövrü musiqisinin mükəmməl bilicisi, dünyanın mötəbər vokal müsabiqələrində münsiflər heyətinin üzvü olan Vinçenzo de Vivo İtaliyanın Ozimo şəhərindəki məşhur vokal sənəti məktəbi – “Akkademia D’arte Lirika”nın bədii rəhbəridir. O, Milandakı “La Skala”dan Trevizo şəhərində yerləşən “Teatro Communale”yə qədər bir sıra teatrlarda fəaliyyət göstərib, müxtəlif ölkələri təmsil edən musiqiçilərlə çalışıb. Həmçinin onlarla opera tamaşasına librettolar yazıb. 2011-ci ildən bədii rəhbəri olduğu “Akkademia D’arte Lirika”da Azərbaycan, Türkiyə, Qazaxıstan, Ukrayna, Gürcüstan, Özbəkistan, Almaniya, Fransa, Rusiya, Braziliya, Misir, Yunanıstan, İsrail və digər ölkələrdən gələn tələbələri dünya opera səhnəsinə hazırlayır.



Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev aprelin 25-də “Barokko günləri” festivalının qonağı olan Vinçenzo de Vivo ilə görüşüb. Görüşdə nazirliyin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova və festivalın bədii rəhbəri, Əməkdar artist İlham Nəzərov da iştirak ediblər.

Görüş zamanı “Barokko günləri” Beynəlxalq Musiqi Festivalı, Azərbaycan və İtaliya arasında mədəni münasibətlər, o cümlədən ölkəmizdə klassik vokal məktəbinin inkişaf perspektivləri, mümkün birgə layihələr barədə fikir mübadiləsi aparılıb.

# Nazirliyin Aparatına yeni rəhbər təyinatı

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimovun əmri ilə Vüqar Məmmədov nazirliyin Aparat rəhbəri təyin olunub.



V.Məmmədov 2007-ci ildə Bakı Dövlət Universitetini, 2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetini, 2020-ci ildə Prezident yanında Dövlət İdarəçilik Akademiyasını fərqlənmə diplomları ilə bitib.

2009-cu ildən Mədəniyyət və Turizm Nazirliyində işləməyə başlayıb. Nazirliyin Mədəniyyət siyasəti, Mədəniyyət müəssisələri və xalq yaradıcılığı şöbələrində məsləhətçi, aparıcı məsləhətçi, Elm, təhsil və gənclərlə iş şöbəsində sektor müdiri vəzifələrində çalışıb.

2018-2020-ci illərdə Mədəniyyət Nazirliyi Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsində sektor müdiri, şöbə müdirinin müavini, 2020-ci ilin sentyabr ayından 2021-ci ilin avqust ayınadək Regional siyasət şöbəsinin müdiri vəzifələrində işləyib. Son təyinatadək Strateji inkişaf və layihələrin idarəedilməsi şöbəsinin müdiri olub.

# “Şərqlə Qərbin ahəngində”

## “Barokko günləri” festivalında daha bir konsert



Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 23-26 aprel tarixində Bakıda keçirilən “Barokko günləri” Beynəlxalq Musiqi Festivalı Azərbaycan, İtaliya, Türkiyə, Ukrayna və Gürcüstandan ifaçıları bir araya gətirmişdi.

Festival çərçivəsində növbəti konsert proqramı aprelin 25-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında gerçəkləşdi.

“Şərqlə Qərbin ahəngində” adlı musiqi axşamında Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi Musiqi sektorunun müdiri Vüqar Hümbətov, mədəniyyət və incəsənət xadimləri, digər qonaqlar iştirak edirdilər.

Konsertdə “D`accordo” barokko ansamblı (bədii rəhbər və klavesin ifaçısı – Əməkdar artist İlahə Sadıqzadə) çıxış etdi.

M.Pretoriusun “Bransl de la Torş” əsəri ilə başlayan proqram J.B.Lüllinin “Skaramuş çakonası” əsəri ilə davam etdi. L.Bokkeini G.Hendel, A.Korelli, A.Skarlatti və digər bəstəkarların əsərləri musiqi axşamına əlavə rəng qatdı.

Türkiyəli musiqiçi Hande Cangöçgenin (arklüt) ifasında M.Lambetin “Ma bergere est tendre et fidelle” əsəri də konsertin yaddaqalan nömrələrindən oldu.

Proqramın digər musiqili qonaqları – türkiyəli musiqiçi Kaan Buldular (kontratenor), Əməkdar artistlər Fəridə Məmmədova (soprano), Nicat Salmanov (fleyta) və italiyalı sənətçi Stefano Demikelinin (klavesin) ifaları da alqışlarla qarşılandı. Konsertə G.de Maşonun “Douce dame jolie” əsəri ilə yekun vuruldu.

Bildirək ki, Qərbi Avropada klassik musiqinin XVI əsrin sonu – XVIII əsrin birinci yarısında inkişaf dövrünü “Barokko musiqisi” (barokko – italyanca “təmtəraqlı”, “qəribə” mənalarını verir) adlandırırlar. Barokko təxminən 150 il ərzində (Y.S.Baxın vəfat etdiyi 1750-ci ilədək) musiqidə müxtəlif bəstəkarlıq üslub və axtarışlarının mövcud olduğu dövrdür. Bundan sonra Avropada klassik (akademik) musiqi tam təşəkkül tapıb.

**Nurəddin**

# Qarabağ və Şərqi Zəngəzurun memarlıq irsinə baxış

Bu konfransın keçirilməsində məqsəd Qarabağda və Şərqi Zəngəzurda memarlıq irsinin qorunub saxlanılması üzrə əsas vəzifələri müəyyən etmək, memarlıq abidələrinin bərpası üçün tövsiyələr hazırlamaq, memarlıq və şəhərsalma irsinin mühafizəsi sisteminin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaqdan ibarətdir.

Bu fikirləri Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) təşkilatçılığı, Mədəniyyət və Təhsil nazirliklərinin dəstəyi ilə keçirilən "Qarabağ və Şərqi Zəngəzurun memarlıq irsi. Bərpa, qorunma və istifadə problemləri" mövzulu beynəlxalq konfransın açılışında universitetin rektoru, professor Gülçöhrə Məmmədova diqqətə çatdırdı.

21-22 aprel tarixlərində gerçəkləşən beynəlxalq elmi-praktik konfrans hibrid (onlayn və əyani) formada təşkil olunmuşdu.

Konfransın "Fairmont Baku" hotelində keçirilən açılışına mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, təhsil nazirinin müavini Firudin Qurbanov, respublikanın ali təhsil müəssisələri və elmi qurumlarının rəhbər şəxsləri, Türkiyə, İtaliya və Qazaxıstandan alimlər qatılmışdılar.

AzMİU-nun rektoru Gülçöhrə Məmmədova işğaldan azad olunmuş ərazilərimizdə aparılan quruculuq işlərindən söz açaraq bildirdi ki, bu işlərlə yanaşı otuz il sürən işğal dövründə ermənilər tərəfindən məhv edilən, saxtalaşdırılan memarlıq abidələrimizin bərpası, memarlıq və şəhərsalma irsinin mühafizəsi bu gün qarşıda duran ən mühüm vəzifələrdəndir. Qeyd etdi ki, Azərbaycanın memarlıq sahəsində ən qocaman təhsil ocağı kimi AzMİU da bu işlərə öz töhfəsini vermək əzmindədir. Universitetdə çalışan alimlər tarixi-memarlıq irsimizin öyrənilməsi, mühafizəsi və istifadəsi problemlərini tədqiq edir, müxtəlif layihələr ərsəyə gətirirlər.



Rektor memarlıq irsinin qorunub saxlanılmasına cavabdeh olan beynəlxalq təşkilatların işğal olunmuş ərazilərimizdə mədəni irsin məhv edilməsinə biganəlik nümayiş etdirməsinə də toxundu. Qeyd etdi ki, Azərbaycan dövləti tarixi ədaləti bərpa edərək ona məxsus olan əraziləri geri qaytarıb və indi bütün dünya Qarabağda, Şərqi Zəngəzurda memarlıq irsinin, ümumiyyətlə, bütün şəhərsalma infrastrukturunun erməni işğalçıları tərəfindən necə məhv edildiyini görür.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri haqqında ətraflı məlumat verdi, görüləcək işlərə qısa nəzər saldı, vandalizmə məruz qalan abidələrin yeni siyahısı və vəziyyəti barədə bilgiləri bölüşdü. Qeyd olundu ki, işğaldan azad edilən ərazilərdə 706-sı dövlət qeydiyyatında olmaqla 2600-dən çox tarix-mədəniyyət abidəsi mövcuddur. Şuşada Bülbülün Ev-Muzeyi, Üzeyir Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin büstü və məqbərəsi bərpa olunub, Aşağı və Yuxarı Gövhər ağa məscidləri, Saatlı məscidinin bərpası davam etdirilir. Yaxın zamanlarda Ağdamda Cümə və Qiyaslı məscidlərinin də bərpasına başlanılacaq.

Təhsil nazirinin müavini Firudin Qurbanov 30 ilə yaxın davam edən işğal dövründə Qarabağ ərazisində dağıdılan infrastruktura diqqət çəkərək ümumilikdə 993 təhsil müəssisəsinin məhv edildiyini diqqətə çatdırdı.

İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Şahin Seyidzadə müəssisənin tabeliyində olan abidələrin bərpası ilə bağlı görülən işlər haqqında danışdı, bu işlərin daha geniş vüsət alması üçün müvafiq institut və universitetlərlə əməkdaşlıqda maraqlı olduqlarını bildirdi.

Konfransın plenar iclasında AzMİU-nun rektoru Gülçöhrə Məmmədova "Qarabağın və Şərqi Zəngəzurun memarlıq irsi", Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Ravan Həsənov "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mədəni irsə qarşı həyata keçirilmiş vandalizm", İtaliyadan bərpa və mühəndisdən sonrakı beynəlxalq ssenarilər üzrə ekspert Alessandro Bianki "Qarabağın azad edilməsi. Azərbaycan irsinin qorunması və idarə olunması sahəsində irəliləyiş fürsəti" mövzularında məruzə etdilər.

***

Sonra konfrans dörd seksiya üzrə işini davam etdirdi, ümumilikdə 50-yə yaxın məruzə dinlənildi. Bunlardan 20-si Türkiyə, İtaliya, Qazaxıstan və Çin alimləri tərəfindən təşkilat komitəsinə təqdim edilmiş məruzələr idi.

İlk seksiyada "Şuşanın memarlıq irsi" mövzusu ətrafında çıxışlar oldu. Şuşa şəhərinin memarlıq abidələri və şəhərsalma quruluşunun xüsusiyyətləri, işğal dövründə Şuşanın tarixi-memarlıq irsinə vurulan zərbə, şəhərin memarlıq mühitinin bərpası və istifadəsi problemləri, eləcə də Şuşanın multikultural mühiti, sarayları və s. istiqamətlər üzrə fikir mübadiləsi aparıldı.

Müzakirəyə çıxarılan ikinci məsələ "Qarabağ və Şərqi Zəngəzurun memarlıq irsinin bərpası və qorunması problemləri" mövzusuna həsr olunmuşdu. Burada Qarabağın və Şərqi Zəngəzurun memarlıq irsi, müharibə və işğal illərinin bu mirasa təsiri, tarixi memarlığın bərpa, mühafizə və istifadə problemləri diqqət mərkəzinə çəkildi, maraqlı məruzələr təqdim olundu.

"Mədəni irsin idarə olunması" mövzusunda üçüncü seksiyada tarixi-memarlıq irsinin qorunmasında yeni texnologiyalar, irsin idarə olunmasının sosial aspektləri və bununla bağlı beynəlxalq təcrübə haqqında söz açıldı.

Dördüncü istiqamət kimi isə "Tarixi şəhərlərin müasir inkişafı" mövzusu seçilmişdi. Burada regionun intensiv inkişafı kontekstində mədəni irsin idarə olunması problemləri, müasir şəhərlərin yaradılması, tarixi ərazilərin qorunub saxlanılması və bərpası, regionun davamlı inkişafında mədəni irsin rolu, nəqliyyat problemləri və mühəndis kommunikasiyaları ilə əlaqədar təhlillər aparıldı.

Beynəlxalq elmi-praktik konfrans aprelin 22-də işini AzMİU-da davam etdirdi.

**Həmidə Nizamiqızı**

## Gəncliyə örnək qəhrəmanlar



Şəmkir RMİ Daşkəsən rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi Məhəmməd Abdullayevin xatirəsinə həsr olunmuş "Gənclərimizin qəhrəmanlıq salnaməsi" adlı anım tədbiri keçirilib.

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə N.Nərimanov adına Masallı şəhər 2 saylı tam orta məktəbində "Qəhrəmanları tanıyaq" layihəsi çərçivəsində növbəti tədbir keçirilib. Tədbirdə mədəniyyət işçiləri, Vətən müharibəsi qaziləri, müəllim və şagirdlər iştirak ediblər.

Ramazan ayı münasibətilə Cəlilabad rayon Mədəniyyət Mərkəzi və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Cəlilabad rayon komitəsinin birgə təşkilatçılığı ilə Birinci Qarabağ müharibəsi şəhidi Fazil Əliyevin ailəsi və Vətən müharibəsi qazisi İsmayıl Hüseynov ziyarət olunub.

Bərdə RMİ Yevlax Şəhər Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Vətən müharibəsi şəhidi Faiq Adıgözəlovun ailəsini ziyarət ediblər.

## Kitab qiymətli xəzinədir



Sumqayıt RMİ Sumqayıt Mərkəzi Uşaq Kitabxanasının əməkdaşları 23 aprel – Dünya Kitab və Müəllif Hüquqları Günü ilə əlaqədar N.Tusi adına 12 nömrəli tam orta məktəbdə "Qeyri-adi kitablar haqqında maraqlı faktlar" adlı tədbir təşkil edib. Tədbirdə uşaqlar kitabxana əməkdaşlarının hazırladığı "Ginnesin rekordlar kitabı"ndan bəhs edən videoçarxı izləyiblər.

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının əməkdaşları və oxucuları "Azərkitab" Kitab Təbliğatı Mərkəzinin Quba filialında tanınmış yazarlar Elxan Elatlı, Varis Yolçuyev, Əlibala Məhərrəmzadə və Ramiz Qusarçaylı ilə görüş keçiriblər. Müəlliflər yaradıcılıq prosesi, əsərlərindəki obrazlar və Azərbaycan poeziyası haqqında ətraflı məlumat veriblər.

Masallı RMİ Masallı rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə İntiqam Əsgərli adına Masallı şəhər 3 saylı tam orta məktəbində Dünya Kitab və Müəllif Hüquqları Günü ilə əlaqədar tədbir keçirilib.

İsmayıllı RMİ İsmayıllı rayon MKS tərəfindən əlamətdar gün münasibətilə açıq havada kitab sərgisi təşkil edilib.

Ağstafa RMİ Ağstafa rayon Mərkəzi Kitabxanasının Xidmət və uşaq şöbəsi "Kitab ən qiymətli xəzinədir" başlığında tədbir və sərgi təşkil edib.

Tovuz rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə E.Məmmədov adına şəhər tam orta məktəbində "Kitab olsun amalın" başlığında tədbir keçirilib.

Gəncə RMİ Samux rayon MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Yaxşı kitab çox qiymətli xəzinədir" adlı kitab sərgisi keçirib.

## Mədəni kənd – mədəni mühit

Sabirabad RMİ tərəfindən kənd mədəniyyət müəssisələrinin fəaliyyətinin stimullaşdırılması məqsədilə "Mədəni kənd – mədəni mühit" layihəsi çərçivəsində tədbirlər davam etdirilir. Layihənin məqsədi kənd əhalisinin asudə vaxtının səmərəli təşkili, yerlərdə mədəniyyət müəssisələrinin fəaliyyətinin stimullaşdırılması, yaradıcı gəncləri aşkar olunması və tanıdılmasıdır.

Layihə çərçivəsində Saatlı rayon Mədəniyyət Mərkəzinin Nəsimikənd kənd Folklor evi, Nəsimikənd "Adıgün" Mədəniyyət evi və kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Dərviş Parisi partladır" tamaşası səhnəyə qoyulub. Əsər tamaşaçılar tərəfindən maraqla izlənilib.

**Hazırladı: N.Məmmədli**

# Bölgələrdə "Şuşa İli" tədbirləri davam edir

Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində "Şuşa İli" ilə bağlı müxtəlif tədbirlər keçirilib, qədim şəhərin mədəni zənginlikləri təbliğ olunub.



Sabirabad Regional Mədəniyyət İdarəsi (RMİ) Hacıqabul rayon Mədəniyyət Mərkəzində "Mədəniyyətimizin beşiyi – Şuşa" adlı sərgi nümayiş olunub, konsert proqramı keçirilib. RMİ-nin rəisi Fərid Qurbanzadə "Şuşa İli" ilə bağlı mədəniyyət ocaqlarında təşkil edilən silsilə tədbirlərdən, sərgi və müsabiqələrdən söz açıb. Hacıqabul Rayon İcra Hakimiyyəti başçısının müavini Xuraman Məmmədova Şuşada bu gün şəhərin tarixi simasının bərpası yönündə işlərin həyata keçirildiyini bildirib. Çıxışlardan sonra konsert proqramı təqdim olunub.



Kürdəmir RMİ-nin təşkilatçılığı ilə Kürdəmir rayon Heydər Əliyev Mərkəzində "Gəl, səni Şuşaya aparım" adlı tədbir keçirilib. İdarənin rəisi Faiq Xudanlı və rayon İcra Hakimiyyətinin əməkdaşı Elxan Qafarov çıxışlarında ölkə başçısı tərəfindən elan olunan "Şuşa İli"nin əhəmiyyətindən danışıblar. Tədbir Kürdəmir rayon Uşaq incəsənət məktəbi və rayon Mədəniyyət Mərkəzinin hazırladığı konsert proqramı ilə davam edib.

Bərdə RMİ Bərdə rayon MKS-nin 2 nömrəli şəhər kitabxana filialı Bərdə rayon İnteqrasiya təlimli internat tipli gimnaziyasında "Azad Şuşamız" adlı sərgi təşkil edib.



Biləsuvar RMİ Salyan rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Şuşa zəfəri Azərbaycan tarixinin qəhrəmanlıq salnaməsidir" adlı tədbir gerçəkləşib. Ağcabədi RMİ Ağcabədi rayon Mərkəzi Kitabxanasında "Şuşa İli" münasibətilə kitab sərgisi təşkil olunub. Sərgidə Şuşanın tarixi, coğrafiyası və görkəmli şəxsiyyətləri ilə bağlı nəşrlər yer alıb.

Ağstafa RMİ Qazax Dövlət Rəsm Qalereyasında "Şuşa – mədəniyyət paytaxtımız" başlığı altında sərgi keçirilib.

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzinin təşəbbüsü ilə tarix üzrə fəlsəfə doktoru Mürvət Abbasov ictimaiyyət nümayəndələri və gənclər üçün "Şuşanın keçmişi və bu günü" mövzusunda mühazirə oxuyub.

Gəncə RMİ-nin təşəbbüsü ilə "Şuşa İli" çərçivəsində keçirilən Aşıq müsabiqəsinin növbəti seçim turu olub. Seçim turu Aşıq Şəmşirə həsr edilib. Gəncə RMİ-nin rəisi Vasif Cənnətov bildirib ki, ulu ozan-aşıq sənəti xalqımızın milli ruhundan gəlib. Bu sənəti yaşatmaq, gənc nəslə ötürmək lazımdır. Gəncə, Naftalan şəhərləri, Goranboy, Tovuz, Kəlbəcər, Xocalı və Şəmkir rayonlarından 30 nəfər gənc seçimlərdə iştirak edib.



Gəncə şəhəri T.Hacıyev adına 2 nömrəli və Z.Qayıbov adına 5 nömrəli uşaq musiqi məktəblərinin birgə təşkilatçılığı ilə keçirilən "Şuşa ilə Zəfər!" adlı tədbirdə məktəblərin müəllim və şagirdlərinin ifasında musiqi nömrələri təqdim edilib.

Şəki RMİ Şəki rayon Oxud kənd Folklor evində "Xarıbülbülü Şuşam" adlı konsert keçirilib. RMİ-nin tabeliyindəki Balakən rayon Heydər Əliyev Mərkəzində "Şuşanın mədəniyyət inciləri" başlığı altında diskussiya təşkil olunub.



Ağdaş RMİ Zərdab Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Qarabağın zümrüd tacı – Şuşa" adlı tədbir keçirilib. Muzeyin elmi işçisi Ziyalə Əliyeva çıxış edərək "Şuşa İli" ilə bağlı muzeydə təşkil edilən silsilə tədbir və sərgilərdən söz açıb.

Regional idarənin əhatə etdiyi Ağsu rayon mədəniyyət müəssisələrinin təşkilatçılığı və rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Varlığın hər kəsə səadət, Şuşa" adlı tədbir keçirilib. Rayon musiqiçilərinin ifalarında "Azərbaycan", "Şuşanın dağları", "Qarabağ" və digər mahnılar, həmçinin "Qarabağ şikəstəsi" zərbi-muğamı səsləndirilib.



İsmayıllı RMİ-nin təşkilatçılığı ilə keçirilən "Mədəniyyətimizin beşiyi – Şuşa" adlı tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov, regional idarənin rəisi Elçin Nəcəfov və ictimaiyyət nümayəndələri iştirak ediblər. İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin foyesində Şuşada anadan olan və orada yaşayıb-yaratmış incəsənət xadimlərinin fotolarından, həmçinin qala-şəhərimizlə bağlı rəsm əsərləri, Şuşanın mətbəxi nümunələrinə baxış keçirilib. Tədbirin bədii hissəsində musiqi nömrələri və səhnəciklər təqdim edilib.

# "Keşikçidağ" qoruğunda veloyürüş

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi ilə Ağstafa rayonundakı "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunda veloyürüş keçirilib.

Rayonun Soyuqbulaq qəsəbəsindən "Cəngi" sədaları altında başlayan yürüş qoruğun informasiya mərkəzinə qədər davam edib.

Yürüşdən sonra qoruğun bələdçiləri iştirakçılara ərazidəki Ceyrançuxur, Sarıyoxuş kurqanları, Qaltan və Karvan dərəsi, Hasarlı yaşayış düşərgəsi haqqında məlumat veriblər.

İnformasiya mərkəzində tədbirin rəsmi hissəsində Dövlət Xidmətinin, rayon İcra Hakimiyyətinin əməkdaşları, Vətən müharibəsi qaziləri iştirak ediblər.

Qoruğun direktoru Musa Mursaquliyev qonaqları salamlayıb. Dövlət Xidmətinin şöbə müdiri Ruslan Ənvərli bildirib ki, həm gənclər, həm də yaşlı insanların qatıldığı yürüş 16 kilometr məsafəni əhatə edib: "Məqsəd qoruq ərazisində yerləşən – tarixi Daş dövründən başlayaraq Orta əsrlərə qədər olan memarlıq abidələrinin daha geniş tanıdılmasıdır. İstəyirik ki, hər kəs abidələri sevsin, qayğı göstərsin və onları gələcək nəsillərə çatdıraq...".



Ağstafa Rayon Gənclər və İdman İdarəsinin rəisi Əziz Məsmalıyev, 15 ildən çox qoruq ərazisində elmi tədqiqatlar aparmış BDU-nun dosenti, sənətşünaslıq üzrə elmlər doktoru İmaş Hacıyev, BDU-nun dosenti, filologiya üzrə elmlər doktoru Valeh Nəsibov, Əməkdar mədəniyyət işçisi Hüseyn Hüseynov və Vətən müharibəsi qaziləri çıxış edərək Keşikçidağ mağaralar kompleksi və yürüş barədə təəssüratlarını bölüşüblər.

**F.Hüseynli**

# Xalq artisti Munis Şərifovun 60 illiyi qeyd olundu

Xalq artisti, kamança ifaçısı, Qədim musiqi alətləri ansamblının bədii rəhbəri və konsertmeysteri Munis Şərifov aprelin 24-də 60 yaşını qeyd etdi.




Bu münasibətlə Beynəlxalq Muğam Mərkəzində (BMM) sənətkarın yubileyinə həsr olunmuş gecə keçirildi.

Gecədə əvvəlcə müxtəlif ölkələrdən mədəniyyət xadimlərinin yubilyarın ünvanına təbrik videoları təqdim olundu.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Alla Bayramova, Xalq artisti Möhlət Müslümov, professor Abbasqulu Nəcəfzadə və başqaları çıxış edərək yubilyara təbriklərini çatdırdılar.

Çıxışlarda Munis Şərifovun milli musiqi mədəniyyətimizin inkişafına verdiyi töhfələrdən söhbət açıldı. Bildirildi ki, Munis Şərifov Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində 1996-cı ildə yaradılan Qədim musiqi alətləri ansamblının konsertmeysteri olub. 2013-cü ildən həmin ansamblın bədii rəhbəri və konsertmeysteridir. O, çəqanə qədim musiqi alətinin dünyada yeganə ifaçısı hesab edilir. Musiqiçi 1993-1995-ci illərdə Tehran Musiqi və Mədəniyyət Mərkəzində kamança müəllimi kimi fəaliyyət göstərib, İranın bir çox şəhərlərində solo konsertlərlə çıxış edib, Azərbaycan milli musiqisinin və milli alətimizin təbliğinə töhfə verib. 1990-cı ildən 2014-cü ilədək Bakı Musiqi Akademiyasında (BMA) Qədim milli musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi elmi laboratoriyasında baş elmi işçi və Azərbaycan Milli Konservatoriyasında (AMK) kamança-muğam müəllimi işləyib. Hazırda AMK-da dosent kimi fəaliyyət göstərir.

Munis Şərifov Azərbaycan milli musiqisini ümumilikdə 20-dən çox ölkədə təbliğ edib. Sənətkarın Azərbaycan musiqi mədəniyyətinin inkişafında və təbliğində göstərdiyi xidmətlər dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 2006-cı ildə "Əməkdar artist", 2016-cı ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülüb.

Yubiley tədbirində BMM-in solistləri, Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Qədim musiqi alətləri ansamblı və sənətkarın tələbələrinin ifasında konsert proqramı təqdim edildi. Bir-birindən maraqlı ifalardan ibarət musiqi çələngi sənətkarın 60 illiyinə yaddaqalan hədiyyə oldu. Xalq artistinin kamançada solo ifaları da gecəyə xüsusi rəng qatdı.

Sonda yubilyar çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirdi.

**Lalə Azəri**

# "Burdan min atlı keçdi" – Rus Dram Teatrının səhnəsindən




C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı Əməkdar incəsənət xadimi, şair-dramaturq Hidayətin "Burdan min atlı keçdi" əsərinin növbəti tamaşasını Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində təqdim edib.

Premyerası 2014-cü ildə olmuş tamaşa XX əsrin sonlarında Qafqazda münaqişələrin alovlanması məqsədilə gizli siyasət yürüdənlərin əməllərinə qarşı ulu öndər Heydər Əliyevin kəskin mövqeyini, həmçinin qərbi azərbaycanlıların erməni şovinistləri ilə mübarizəsini əks etdirir. Tamaşanın budəfəki nümayişi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilib.

Maraqla qarşılanan səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Vahid Mürsəliyevdir.

Sonda şair-dramaturq Hidayət tamaşa haqqında fikirlərini bölüşərək kollektivi təbrik edib.

əvvəli səh. 1-də

# "Yeni adlar" layihəsində gənc tarzənlər səhnəyə çıxdı

Musiqi axşamının tamaşaçıları arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət Nazirliyinin nümayəndələri, incəsənət xadimləri vardı. Konsertdə gənc tarzənləri Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (bədii rəhbər və baş dirijor – Xalq artisti Ağaverdi Paşayev) müşayiət edirdi.

Proqramda Musa Mirzəyevin "Azərbaycan rəqsi", Niyazinin "Qaytağı", Hacı Xanməmmədovun kamança və orkestr üçün konsert (tar üçün işləmə), tar və orkestr üçün 2 nömrəli konsert əsərləri ifa olundu. Orkestrin və gənc musiqiçilərin ahəngdar çıxışı tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

***



Konsertdən əvvəl qəzetimizə müsahibə verən Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru, Xalq artisti Ağaverdi Paşayev layihənin əhəmiyyətini yüksək qiymətləndirdi: "Ölkəmizdə milli musiqinin, mədəni irsimizin qorunması, ifaçılıq sənətinin inkişafı və təbliği istiqamətində mühüm layihələr həyata keçirilir. Mədəniyyət Nazirliyinin "Yeni adlar" layihəsi də bunlardan biridir. Layihə müasir Azərbaycan ifaçılıq sənətinin inkişafına, bu sahədə yeni istedadlı nəslin tanınmasına, parlaq ifaçıların yetişməsinə, o cümlədən musiqi sənətimizi dərindən bilən, onu duyaraq böyük sevgi hissi ilə ifa edənlərin sayının artmasına xidmət edir. Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Filarmoniyasında artıq iki konsert proqramı keçirilib".

"Yeni adlar"ın budəfəki iştirakçılarını da oxucularımıza yaxından tanıtmaq istərdik.

İbrahim Babayev 1997-ci ildə Bakı şəhərində anadan olub. 2002-ci ildə Fikrət Əmirov adına 6 nömrəli Onbirillik incəsənət məktəbini tar sinfi üzrə bitirib, həmin ildən təhsilini Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində davam etdirib. Sonra Azərbaycan Milli Konservatoriyasının bakalavr və magistr pillələrini fərqlənmə diplomları ilə başa vurub.

İ.Babayevin tanınmış ifaçı və musiqi qrupları ilə uğurlu çıxışları olub. 2013-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş gənc ifaçıların II Respublika müsabiqəsində I yerə layiq görülüb. 2015-ci ildə Nyu-York şəhərində keçirilən "American Protegee İnternational Competition" beynəlxalq müsabiqəsində ölkəmizi yeganə iştirakçı kimi layiqincə təmsil edərək I yeri qazanıb. 2016-cı ildə Özbəkistanın Daşkənd şəhərində keçirilən "Ana yurdun ahəngləri" II beynəlxalq müsabiqəsində də I yerə layiq görülüb. Gənc tarzən həmin il Gənclər və İdman Nazirliyi tərəfindən "İlin gənci" mükafatı ilə təltif edilib. 2017-ci ildə Bakıda keçirilən "Testene Art Baku" beynəlxalq incəsənət festival-müsabiqəsində və "Könül çeşmələri" müsabiqəsində I yerin sahibi olub. 2018-ci ildə isə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş gənc ifaçıların III Respublika müsabiqəsində I dərəcəli diploma layiq görülüb.

Atabəy İsmayılov 1998-ci ildə Füzuli rayonunda anadan olub. 2016-cı ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini tar sinfi üzrə bitirib. 2020-ci ildə Azərbaycan Milli Konservatoriyasını bakalavr, 2022-ci ildə magistr pillələrini fərqlənmə diplomları ilə bitirib. Atabəy il uğurunu 2012-ci ildə əldə edib. Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin təşkilatçılığı ilə Azərbaycan professional vokal sənətinin banisi Bülbülün 115 illik yubileyinə həsr olunmuş musiqi festivalı çərçivəsində Bülbül adına I Respublika müsabiqəsində birinci dərəcəli diploma mükafatlandırılıb. 2013-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş gənc ifaçıların II Respublika müsabiqəsində isə Qran-pri mükafatını qazanıb. Həmin il dövlət başçısının sərəncamı ilə onun adı Azərbaycan gənc istedadlarının "Qızıl kitabı"na yazılıb və Prezidentin xüsusi aylıq təqaüdünə layiq görülüb.

2018-ci ildə İspaniyanın Lloret de Mar şəhərində keçirilən "Aralıq dənizi əfsanələri" beynəlxalq festival-müsabiqəsində yeganə azərbaycanlı iştirakçı olaraq I yerin qalibi olub. 2019-cu ildə çalışdığı Azərbaycan Dövlət Akademik Musiqili Teatrında "Mövsümün ən yaxşı musiqiçisi" adına layiq görülüb.

"Yeni adlar" layihəsi üzrə konsert proqramları iyul ayınadək davam edəcək.

**Nurəddin Məmmədli**

# Günahın hamısı marazmdadır...



Konsepsiya: olmalıdır, olmazsa, heç bir fikir axını çuxuruna düşməz. Olmadısa – bütün mətləblər səhnədən pırr eləyib uçur...

Ondan başlayım ki, bu yazını yazarkən xeyli əziyyət çəkdim. Tamaşaya baxarkən də. "Filumena Marturano" – Akademik Milli Dram Teatrında məşqlərinə hələ pandemiyadan öncə başlanılan və nəhayət, tamaşaçı ilə görüşən yeni səhnə işi.

Tamaşa italyan dramaturqu Eduardo de Filipponun eyniadlı əsəri əsasında hazırlanıb. Bədii rəhbəri Xalq artisti Azər Paşa Nemətov, quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, rejissoru Mehman Fətullayevdir. Səhnə əsərinin quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, işıq üzrə rəssamı Rafael Həsənov, musiqi tərtibatçısı Kamil İsmayılov, rəqslərin quruluşçusu Lalə Hacıyevadır. Əsəri Azərbaycan dilinə yazıçı Ülviyyə Heydərova tərcümə edib.

Baş rolları Xalq artistləri Bəsti Cəfərova (Filumena Marturano) və Ramiz Novruz (Domeniko Soriano) oynayırlar. Səhnə əsərində həmçinin Əməkdar artist Sevinc Əliyeva, aktyorlar Ramin Şıxəliyev, Ləman İmanova, İlahə Həsənova, Fəridə Şahbazova, Vüsal Mustafayev, Elnur Qədirov, Corc Qafarov, Cavidan Novruz, Elsevər Rəhimov, Firuzə Balayeva, Xədicə Novruzlu rol alıblar.

Müəllifin üçpərdəli komediyasını ikihissəli tamaşa kimi təqdimatında janr olaraq komediya qeyd edilsə də, səhnə işinin (xüsusən ikinci hissədə) dram ilə komediyanın məngənəsində sıxıldığı nəzərə çarpır. Bunu gördükdə janr üzərindən tragikomik bir gəzişmə də aparmaya bilmirsən. Gəzişmə demişkən, maraqlıdır, görəsən, rejissor bu əsəri səhnə üçün seçərkən onun izləyiciyə hansı sadə mesajı verəcəyini nə dərəcədə nəzərə alıb?

Tamaşa boyu biz 25 il evli kişinin məşuqəsi olmuş qadın ilə həmin kişi arasında, əslində, bir-birinə məhkum olmuş ikilinin çəkişməsində tərəf seçməyin qeydinə qalırıq.

Qadın kimdir? Evli kişi ilə münasibət quran, onun məşuqəsi olmağı qəbul edən və üstəlik illərlə o kişinin arvadı olmaq üçün min hoqqadan çıxan Filumena. Kişi – onun əsiri olan qadın düşkünü, varlı, axmaq Domeniko (Mimi).

Tamaşa əzik-üzük gəlin paltarı ilə səhnəyə atılan Filumenanın çıxışı ilə başlayır. O, çox məmnundur. Can üstə olması barədə yalan uydurauraq keşiş qarışıq hamıya kələk gəlir və nəhayət, yeganə planı olan evlilik aktını gerçəkləşdirir. Doğrudur, biz onu görmürük, amma bütün detalları ilə təsvirini eşidirik. Əslində, bu təfsir-təsvirə sərf olunan vaxtımızı sadə bir mizan ilə şahidliyə də sərf edə bilərdik.

Əlqərəz, Filumenanın ölmədiyini görən Mimi çox qəzəblidir, cilovunu gəmirən at kimi bir yerdə durmur və hər vəchlə ondan boşanacağını deyir. Hətta vəkil tutacağı, qadına bir qəpik pul saxlamayacağı barədə hədələr də edir. Beləcə, birinci hissəni demək olar ki, "boşayacam, boşanmayacam"lara fəda edirik. Bundan sonra rejissor (nə baş verirsə) başdan-ayağa yalançı, fırıldaqçı, əxlaqsız Filumenadan mələk düzəltməyə başlayır. Bəraət də ənənəvidir və pyesdən irəli gələn motivin primitiv fabulasıdır: kasıb məhəllədə ac-yalavac böyüdüyünə görə boyuna fahişəlik biçilən Filumena müqəddəs ruha – Məryəmə itaətə görə atasını belə düzgün təyin etmədiyi uşaqlarını (tələf) tərk etmir. Beləcə, illərlə qurban seçdiyi və həm də özünün qurbanına çevrildiyi kişinin pullarını onun varlığından xəbərsiz oğlanlarına xərcləyir. Ah, lap fədakar ana mücəssəməsi kimi gözlərimizi yaşardır. Bizi də onsuz da əlində plastilin kimi oynatdığı Mimiyə qatıb "oğlanlardan biri sənindir" tapmacası ilə girinc edir. Bu məqamda 80-ci illərin hind filmləri səhnəsi tanqo musiqilərinin fonunda başımızı ovuclarımız arasına sıxacaq qədər ağrıdır.

Baş demişkən, rejissorun əsas qəhrəmanlara vurğu vurmaq, onların baş obraz olduğunu diqqətə çatdırmaq traktovkası əsas obrazlardan heç də geri qalmayan ikinci, üçüncü dərəcəli obrazlara isə əməllicə "zülm edir".

Xüsusən iribədənli Rozaliya Solimene (L.İmanova) və tamaşa boyu nə etdiyini özü anlamayan sısqa, qocalıqdan əti tökülmüş Alfredo Amorozo (R.Şıxəliyev) səhnəni sadəcə təsvirlərlə doldurdular. Bu mənada vəkil Noçella (C.Novruz), dərzi Terezina (S.Əliyeva), qulluqçu Luçiya (F.Balayeva), dərzinin qızı Ofisiant (X.Novruzlu) özlərini bacardıqca realizə etməyə, dar macalda tamaşaçıya görünməyə çalışdılar.

İki kəlmə də Dianadan (İ.Həsənova) danışaq. Aktrisanın plastikası, özünü səhnədə ifadəsi mükəmməl idi. O, ovsunlayıcı qadın kimi səhnədə nə lazım idisə etdi. Düzdür, müəyyən qeyri-estetik ifratları da var idi və inanıram ki, tamaşaya bir də zaldan baxan rejissor onları korrektə edəcək.

Gələk Filumenanın oğlanlarına – Umberto (E.Qədirov), Rikardo (C.Qafarov) və Mikeleyə (V.Mustafayev). Üçlüyün tandemi yaxşı idi və hər biri xarakterik özəlliklərini yaxşı analiz edib, bölgülərini düzgün, daha doğrusu, bacarıqlarına uyğun müəyyənləşdirmişdilər. Onların əlbəyaxa döyüşün yavaşıdılmış kino kadrını andıran parçaları baxımlı və dinamik alınmışdı. Bunu tamaşaçı da yaxşı qarşıladı və alqışladı.

Şadlıq evini xatırladan tərtibat, ümumi dəbdəbəni və ev sahibinin xarakterini göstərən, bir növ italyan üslubuna vurğuya hesablanan həll və musiqiləri nəzərə almasaq, səhnədə müxtəlif ləhcə və üslublarda danışıq və intonasiyalar hadisələrin qonşu məhəllələrin birində baş verdiyinə inam yaradırdı. Bilmirəm, bəlkə bu da tamaşanın, daha doğrusu, ana xəttin tərkib hissəsi idi. Amma, bütün hallarda gözəlim məmləkətimizin müxtəlif bölgələrinin şivələrini (Bəsti Cəfərova xaric) bu şəkildə səhnədən duymaq çox kədərlidir. Buna daha çox güldürmək, daha cəsarətli, daha sərbəst görünməyə işarə üçün eyham və hərəkətlər ilə vulqarlıq elementlərini əlavə edib, keçək baş qəhrəmanlara.

Xalq artistləri Bəsti Cəfərova və Ramiz Novruz nəinki akademik teatrın, ümumən milli teatrımızın seçilən, öz üslubu və ifadə formaları ilə qəbul edilən sənətkarlarıdır. Heç kimə sirr deyil ki, onlar səhnəni ələ almaq, obrazların dilindən hadisə və gedişlərin təsir gücünü özünəməxsus keyfiyyətləri ilə daha da möhkəmləndirmək kimi bir fitrətə sahibdirlər.

Yaşının müəyyən mərhələni adlamasına rəğmən səhnədə hələ də cazibədar olan Bəsti Cəfərova, tamaşaçısı ilə sözün bütün yaxşı mənalarında oynamağı bacaran Ramiz Novruz bu oyuna bacardıqları qədər, hətta fiziki imkanlarından da qat-qat artıq güc itirdilər. Bu yaşda bu tempdə oyunu, açığı, onlardan gözləmirdim də.

Sadəcə və təəssüf ki, yaş və bədən faktoru elə incə, elə sadə detallarda görünürdü ki, ümumi obrazdan asılı qalmaq, ilkin təəssüratının qalması üçün mütləq gözlərini yummağa məcbur olurdun.

Bu məqamda "sənət etikası" fikri ətrafında düşündüm. Sənətdə, səhnədə etika estetikadan da vacib məqamdır və məncə, rejissorlar tamaşa hazırlayıb, film çəkərkən, xüsusən baş rol ifaçıları ilə işləyərkən bu məqama xüsusi diqqət yetirməli və məhz onlara qarşı ifrat haqsızlığa yol verməməlidirlər. Aktyorları, xüsusən ömrünü işıqlı səhnədə keçirən sənətkarları qorumaq və onları öz "işıq"larında seyrçiyə təqdim etmək lazımdır.

...Yazı monoloq təsiri bağışlamasın deyə peşəkar teatrşünas rəyinə də istinad edəcəyəm. Professor Aydın Talıbzadənin tamaşa haqqında yazdığı "İtalyansayağı parazitlər" məqaləsindən bir hissəni əlavə edirəm: "Rejissor dramaturqun Domeniko Sorianoya qurduğu komediya "tələ"sinin süjetini əylənə-əylənə, məzələnə-məzələnə, haradasa lap Mikki Maus ədası ilə hadisələrdən ləzzət ala-ala "tutub gedir", gedə-gedə səhnə kompozisiyalarında emosional coşqunu artırır, aktyorların oyununu məqamı yetişdikcə iri planda "böyüdür", onlara solo ifalarla yadda qalmağa şərait yaradır və camaata azərbaycanlıların milli-əxlaqi dəyərlərilə uzlaşan qutsal, lakin bəlli və aydın mesajlar ötürməyə çalışır. Əgər azərbaycanlıların ürəyini ələ almaq istəyirsənsə, onlara valideyn – övlad sevgisindən danış, ana fədakarlığından danış, övladların doğma yurda dönüşündən danış: həməncə kövrələcəklər, yumşalacaqlar, məsumiyyət dənizində qərq olacaqlar...".

**Həmidə Nizamiqızı**

# "Həyatla oyun" davam edir

Bakı Uşaq və Gənclər Teatrının "Həyatla oyun" tamaşası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası və Ədliyyə Nazirliyi Penitensiar Xidmətin təşkilatçılığı ilə 4 saylı cəzaçəkmə müəssisəsində və Sumqayıt Dövlət Dram Teatrında nümayiş olunub.



Tamaşanın əsas məqsədi bütün insanları bəşəriyyətin ən böyük problemlərindən olan narkomaniya və qazanılmış immun çatışmazlığı sindromuna (QİÇS) qarşı mübarizəyə çağırmaqdır.

Real həyatdan götürülən hadisələr əsasında qurulan birsaatlıq tamaşa yeniyetmələr və böyüklər üçün nəzərdə tutulub. Rejissoru Əməkdar artist İntiqam Soltan, müəllifi Arzu Soltan, rəssamı Sevda Məmmədovadır.

"Şuşa İli"

# Ədəbi yaddaşımızın "Məclisi-üns" səhifəsi

Məkan və zamanından asılı olmayaraq, söz və sənətin qiymətləndirilməsi ədəbi-mədəni mühitin inkişafına öz təsirini göstərir. XIX əsrdə bir çox bölgələrimizdə olduğu kimi, Qarabağda, Şuşada da yaradıcı insanların fəaliyyəti, onların irsinin təbliği üçün münbit şərait olub. Çünki Qarabağ xanlığında ədəbiyyat və mədəniyyətə xüsusi münasibət göstərilib, bu ənənələr sonralar da ziyalılar, sənət adamları tərəfindən yaşadılıb. Bu belə olmasa idi, Qasım bəy Zakir, Baba bəy Şakir, Məhəmməd bəy Aşiq, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Fatma xanım Kəminə, Aşıq Pəri, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyli, Əhməd bəy Ağaoğlu kimi şair, yazıçı və mütəfəkkirlər yetişə bilməzdi...

Şuşada sözlə sənət həmişə qoşa addımlayıb. XIX əsrdə şəhərin musiqi yığıncaqları ilə yanaşı poeziya məclisləri də burada ədəbi-mədəni mühitin inkişafında rol oynayıb. Mənbələrdə ən çox adıçəkilən Şuşa məclisləri "Məclisi-üns" və "Məclisi-fəramuşan"dır. Bu yazıda "Məclisi-üns" haqqında söz açacağıq.

"Məclisi-üns" ("Dostluq məclisi") Şuşada 1864-cü ildə şairlər Mirzə Rəhim Fəna və Hacı Abbas Agahın təşəbbüsü ilə dövrün görkəmli ziyalısı Mirzə Əli Qazinin mədrəsəsində təşkil olunub. Məşğələləri bir müddət sonra Hacı Abbas Agahın evində keçirilib, 1872-ci ildən isə Xan qızı Natəvanın sarayında davam etdirilib. Otuzdan çox üzvü olan məclisin rəhbəri Xurşidbanu bəyim idi. Mirzə Rəhim Fəna, Hacı Abbas Agah, Mirzə Ələsgər Növrəs, Mirzə Həsən Yüzbaşov, İsgəndər bəy Rüstəmbəyov, Mirzə Sadiq Piran, Baxış bəy Səbur, İsmayıl bəy Daruğə, Məşədi Nəsir Lövhi və başqaları məclisin daimi və nüfuzlu üzvləri idilər.

"Məclisi-üns"ə Natəvanın rəhbərlik etməsi, məclis üzvlərinin vaxtlı-vaxtında maddi cəhətdən təmin edilməsi də onun şöhrətinin artmasına təsir göstərib. Məclisin fəaliyyəti müntəzəm şəkil aldıqca və üzvlərinin sayı artdıqca onun sədası Qarabağın hüdudlarını aşır. Şamaxıdan S.Ə.Şirvani, M.Bixud, A.Zühuri, Şəkidən İ.Nakam, Bakıdan A.Müniri, Naxçıvandan M.T.Sidqi, Lənkərandan M.İ.Qasir Şuşaya – "Məclisi-üns"ün adına məktub yazaraq bu yeni ədəbi məclisi təqdir və təbrik edirlər.

Araşdırmalardan məlum olur ki, "Məclisi-üns"də qayda-qanuna, ədəb-ərkana və nizam-intizama xüsusi diqqət yetirilib. Məclisin qabaqcıl üzvləri arasında qadınlara yüksək dəyər verilib. XIX əsrin ikinci yarısında qadınların kişilərlə bir məclisdə fəaliyyət göstərməsi Qarabağ ədəbi məclislərinin özünəməxsusluğundan xəbər verirdi. Həmin vaxtlar Qarabağın tanınmış qadınlarından Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, Aşıq Pəri bədii yaradıcılıqla yanaşı, xeyriyyəçilik fəaliyyətləri ilə də seçiliblər.

Qarabağın görkəmli xanəndə və sazəndələri də məclisin yığıncaqlarında fəal iştirak ediblər. Hacı Hüsü, Məşədi İsi, Keştazlı Haşım və başqa xanəndələr "Məclisi-üns"ün də yığıncaqlarında yaxından iştirak ediblər. Şuşalı Həsən Mirhaşım oğlu Ağamirovun xatirələrindən məlum olur ki, adları yuxarıda qeyd olunan xanəndələrdən əlavə Molla Vəli, Molla Abbasqulu, Məşədi Dadaş, Hacı Məmməd Alı oğlu, Muxtar Kərbəlayı Məmməd oğlu, Məhəmməd Qaryağdı oğlu, Sadıqcan kimi sənətkarlar da "Məclisi-üns"ə çox yaxın olublar.

1890-cı illərin əvvəllərindən X.Natəvanın həyatında baş vermiş bir sıra kədərli hadisələrdən sonra (oğlu Mirabbasın və əri Seyid Hüseynin ölümü və s.) "Məclisi-üns"ün fəaliyyəti zəifləyib. Burada şeir-sənət, musiqi ətrafında qızğın mübahisə və müzakirələr əvəzinə X.Natəvanın vəziyyəti ilə əlaqədar söhbətlər gedib. Ona şeirlər həsr edilərək tezliklə sağalması arzulanıb.

158 il öncə Şuşada yaradılan, sorağı bütün ölkəmizə yayılan "Məclisi-üns"ün fəaliyyəti 1897-ci ilədək – Xan qızı Natəvanın vəfatına qədər davam edib. Onu da bildirək ki, bu il dövlət başçısının sərəncamı ilə Natəvanın 190 illiyi qeyd olunur. Yubiley ilində "Məclisi-üns"lə görkəmli şairənin adı qoşa çəkiləcək...

**Savalan Fərəcov**

# Mədəniyyət paytaxtımızın abidələrinin kataloqu hazırlanıb

## Kataloqda Şuşa abidələrinin işğaldan əvvəl və sonrakı görüntüləri yer alıb

Dövlət başçısının sərəncamı ilə ölkəmizdə elan edilən "Şuşa İli" münasibətilə 270 yaşlı şəhərimizin tarixi-mədəni zənginliklərinin öyrənilməsi və təbliği məqsədilə müxtəlif layihələr həyata keçirilir. Aprelin 20-də Azərbaycan Milli İncəsənət Muzeyində təqdimatı reallaşan "Şuşa – Azərbaycan mədəniyyətinin paytaxtı" kataloqu da belə layihələrdəndir.





Təqdimat mərasimində çıxış edən Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli Şuşa şəhərində yerləşən və dövlət qeydiyyatına alınmış tarix-memarlıq abidələrindən ətraflı bəhs edən kataloqun çap olunmasını Dövlət Xidmətinin "Şuşa İli"nə töhfəsi olduğunu vurğuladı: "Azərbaycan və ingilis dillərində nəşr olunan kataloqda Şuşa şəhərində yerləşən tarix-mədəniyyət abidlərinin işğaldan əvvəl və sonrakı görüntüləri, arxiv sənədləri, onların cizgiləri, abidələr haqqında müfəssəl məlumatlar öz əksini tapıb. Eyni zamanda abidələrin yerləşdiyi məkanlar müvafiq xəritə üzərində də qeyd olunub. Ümumiyyətlə, kataloqda Şuşa şəhərində erməni işğalının nəticələrini tam əks etdirməyə çalışmışıq".

Dövlət Xidməti tərəfindən ölkə ərazisində yerləşən tarix-mədəniyyət abidələrinin qorunması, bərpa-konservasiyası, pasportlaşdırılması, eləcə də mühafizə zonalarının hazırlanması istiqamətində atılan addımlar barədə danışan Azad Cəfərli bu işlər həyata keçirilərkən qabaqcıl təcrübənin öyrənilməsinə önəm verildiyini bildirdi. Dedi ki, "Şuşa İli" çərçivəsində çoxsaylı tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bununla bağlı artıq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən tədbirlər planı da təsdiq edilib. İşğaldan azad edilmiş ərazilərdə, o cümlədən mədəniyyət paytaxtımız Şuşa şəhərində də Dövlət Xidməti tərəfindən öz fəaliyyət istiqamətinə uyğun olaraq işlər həyata keçirilib və bu gün də davam etdirilir. Şuşa şəhərində aparılan tarix-mədəniyyət abidələrinin monitorinqi tam yekunlaşdırılıb. Şəhərdə yerləşən abidələrin elektron xəritəsi tərtib edilib. Şuşada aparılan monitorinq çərçivəsində 45 tarixi abidənin üzərinə məlumat lövhələri quraşdırılıb. Bundan əlavə, Şuşa şəhərində abidələrin "bərpa təlimatı" hazırlanıb.

Azad Cəfərli çıxışının sonunda "Şuşa – Azərbaycan mədəniyyətinin paytaxtı" kataloqunun ərsəyə gəlməsində yaxından göstərdikləri dəstəyə görə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fonduna təşəkkürünü bildirdi.




Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirdi ki, azad olunan ərazilərdə geniş bərpa-quruculuq işləri həyata keçirilir. Ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhəri bərpa-quruculuq işlərinin mərkəzində dayanır. Ötən dövr ərzində infrastruktur layihələri ilə bərabər tarix-mədəniyyət abidələrinin bərpası işlərinə də xüsusi diqqət yetirilib. Bu sahədə həyata keçirilən işlər uğurla davam etdirilir və bu kataloq da məhz bu tədbirlər çərçivəsində hazırlanıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov kataloqda əks olunan faktlara diqqət çəkdi. Qeyd etdi ki, bu faktlar tarix-mədəniyyət abidələrimizə Ermənistanın işğalı nəticəsində dəymiş ziyanın hesablanması, nəticələrinin təhlil edilməsi, gələcək bərpa prosesinin düzgün istiqamətdə aparılması, eləcə də mədəni irsimizin məruz qaldığı dağıntı, vandalizm və mənimsəmə faktlarının dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında tutarlı sənəd qismində çıxış edəcək.

Qeyd edək ki, kataloq Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Beynəlxalq Multikulturalizm Mərkəzinin və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə hazırlanıb.

**Nurəddin Məmmədli**

İsmayıl Osmanlı – 120

# Əbədilik qazanan sənətkar



Sənətkarın düşüncə süzgəcindən keçən rolları məzmunlu, məntiqli olanda əbədilik qazanır, peşəkar təqdimatlarda yaddaşlara yazılır. Görkəmli aktyor, Azərbaycanın və SSRİ-nin Xalq artisti İsmayıl Osmanlının (1902-1978) Azərbaycan kinosunda yaratdığı personajları da üslub və məzmununa görə seçilir, yadda qalır, xatırlanır. Uzun illər çalışdığı Akademik Dram Teatrının səhnəsində geniş tamaşaçı rəğbəti qazanan sənətkar "Azərbaycanfilm" Kinostudiyasında istehsal olunan filmlərdə oynadığı (Rza bəy – "O olmasın, bu olsun", Məmmədəli – "Dəli Kür", Şirəli – "Əsl dost", Şahbazov – "İyirmialtılar", Kərim baba – "Torpaq. Dəniz. Od. Səma", dərzi Yusif – "Yenilməz batalyon", Şərif – "Mən ki gözəl deyildim", Kələntər – "Yeddi oğul istərəm", Fəzlullah Nəimi – "Nəsimi" və s.) ekran obrazlarının təfsirində də istedad və bacarığını təsdiqləyib, filmlərin təsir gücünü, baxımlılığını artırıb.

"Kəndlilər" (1939) filmində debüt (müsavatçı) edən İsmayıl Osmanlı ümumilikdə 20-yə yaxın filmdə irili-xırdalı personajlara ekran həyatı verib. Görkəmli aktyorun anadan olmasının 120 illiyində sənət dünyasına, kino yaradıcılığına qısa nəzər salırıq.

Teatrda əsasən dram, faciə janrında xarakterik rollarla yanaşı, komediyalarda da çıxış edən İsmayıl Osmanlı filmlərdə də obrazların fərdi xüsusiyyətlərini də yüksək sənətkarlıqla yaradaraq, koloritli qəhrəmanları ilə Azərbaycan kinosunun simalarından birinə çevrilib.

Yaddaqalan rollar yaradıcılıq abidəsidir. Kinoda daha çox müsbət xarakterli rollar oynayan İsmayıl Osmanlı personajların həyat mövqeyindən çıxış edərək səmimi, mülayim xüsusiyyətlərin həyat üçün vacib şərt olduğunu incə nüanslarla, özünəməxsus ştrixlərlə göstərib.

### "Bu rolu İsmayıl Osmanlı üçün işləmişəm, o da çəkiləcək"

Əməkdar incəsənət xadimi, kinorejissor Tofiq Məmmədovun yaxın keçmişi əks etdirən xatirələri İsmayıl Osmanlı şəxsiyyətini bizə bir daha tanıdır, sənətə olan münasibətini anladır: "İsmayıl Osmanlı ilə ilk tanışlığım "Ulduzlar sönmür" filmində oldu. 1969-cu ildə görkəmli sənətkar Adil İsgəndərov məni "Mosfilm" Kinostudiyasına, kinorejissor Əjdər İbrahimovun yanında işləməyə, daha doğrusu, yaradıcılıq təcrübəsi keçməyə göndərdi. Moskvaya gedib Əjdər müəllimlə işləməyə başladım. Həmin vaxt "Ulduzlar sönmür" filminin çəkilişlərinə hazırlıq dövrü başlamışdı, aktyor heyəti cəlb olunurdu. Mən ssenari ilə tanış idim. Əjdər müəllim mənə dedi ki, Hacı Zeynalabdin Tağıyev roluna başqa aktyor çağırmağa ehtiyac yoxdur. Mən bu rolu İsmayıl Osmanlı üçün işləmişəm, o da çəkiləcək. Zəng et, Moskvaya gəlsin, Tağıyev roluna onu çəkəcəyik. İsmayıl müəllimə zəng edib vəziyyəti ona bildirdim. Gələndə də aeroportda qarşıladım və "Mosfilm"ə apardım. Əjdər müəllimlə görüşüb xeyli söhbət etdilər. Sonra da ona aid olan paltarların tikilməsi üçün ölçülərini götürdülər.

Film Nəriman Nərimanovun həyatından, ictimai-siyasi fəaliyyətindən bəhs edir. Əjdər İbrahimov filmin çəkilişlərinə həvəslə hazırlaşsa da, həmin illərdə Şaumyanın oğlu SSRİ Elmlər Akademiyasında işləyirdi. O, filmin çəkilməsinə çox maneələr törədirdi. Buna görə də Əjdər müəllim filmin ərsəyə gəlməsi üçün bir çox çətinliklərlə qarşılaşmalı olurdu.

Adil İsgəndərov bir gün mənə zəng edib kinostudiyaya qayıtmalı olduğumu bildirdi. Əjdər İbrahimovun yanında altı ay təcrübə keçdikdən sonra Bakıya qayıtdım. Həmin vaxtlarda "Yeddi oğul istərəm" filmi istehsalata buraxılırdı. Məni həmin filmdə ikinci rejissor təyin etdilər. Filmin hazırlıq dövründə İsmayıl Osmanlı ilə ikinci dəfə qarşılaşdım. Filmin ssenarisi üzərində işləyəndə rəhmətlik Yusif Səmədoğlu bildirdi ki, hansı aktyorları seçirsiniz seçin, amma Kələntər rolu üçün İsmayıl Osmanlını nəzərdə tutmuşam. Bu rolda mütləq İsmayıl müəllim çəkilməlidir...".

### "Hələ belə qəddar rol oynamamışdım"

Tofiq Məmmədov xatirələrində qeyd edir ki, İsmayıl Osmanlının Azərbaycan kinosunda müxtəlif xarakterli, koloritli rolları olsa da, Kələntər obrazını isə o, tamam başqa xarakterdə, mizanda təqdim edib: "Onun filmdə işlətdiyi sözlər, replikalar insanların dilində əzbər olmuşdu. Bəzən indi də həmin ifadələrdən onu yamsılayaraq istifadə edirlər. Kələntər rolunu o qədər dəqiqliklə oynamışdı ki, filmdən sonra da onu qəddar insan kimi tanıyırdılar. Elə zəif, cılız bədəndəki kini, küdurəti, qəddarlığı orijinal ifada, yaddaqalan tərzdə yaratmışdı. İsmayıl müəllim həmişə deyirdi ki, camaatın arasına çıxa bilmirəm. Mən hələ belə qəddar rol oynamamışdım.





Çox mehriban və səmimi insan idi. Kinostudiyaya gələndə hamıya xoş münasibət göstərirdi. Sənət münaqişələrindən kanar idi. Danışanda gülümsəyirdi və Şəki bölgəsinə məxsus olan şirin ləhcəsini qoruyub saxlamışdı...".

Filmin uğurunun 90 faizi aktyor oyununa bağlıdır. Bu mənada "Yeddi oğul istərəm" filminin yaradıcı heyətinin peşəkarlığı ekran əsərinin taleyinə işıq saldı. İsmayıl Osmanlının filmdə oynadığı Kələntər obrazının təfsirində zahirən sadə, təmkinli görünən, əslində isə daxilən amansız, qəddar prototipin fitnə-fəsadı fonunda dövrün qurbanlarının aqibətini izləyirik.

Səhnə, sənət üçün ən vacib amil realist yaradıcılıq, hadisələrin mahiyyətini inandırıcı təqdim etməkdir. İstedad və bacarığı fonunda sənət səviyyəsini ucaldan İsmayıl Osmanlı yaradıcılığı da çoxsaylı sənətsevərlər tərəfindən həmişə böyük rəğbət, dərin hörmət hissi ilə qarşılanıb.

Görkəmli kinorejissorlardan Tofiq Tağızadə, Əjdər İbrahimov, Hüseyn Seyidzadə və digərlərinin məşhur filmlərində İsmayıl Osmanlı yaradıcılığı təkrarən yer alıb. Rejissorlar aktyor seçimində doğru qərar verməklə filmin nailiyyətinə imza atıblar. İsmayıl Osmanlı yalnız öz ifası ilə yox, peşəkar tərəf-müqabil olaraq sənət tərəfdaşlarına böyük stimul verməklə ekran əsərlərinin gerçəkliyinə zəmin yaradıb, filmlərin uğuruna uğur qatıb.

### Heç kimə oxşamırdı

Sənətkarın sənət uğurunun sirrini Xalq artisti Xalidə Quliyevanın söhbətlərində də dinləyək: "İsmayıl Osmanlı ilə iki filmdə tərəf-müqabil olmuşam. Hər ikisində də atamı oynayıb. Birincisi Muxtar Dadaşovun quruluş verdiyi "Bakıda küləklər əsir" filmində Əlibala rolunda, ikincisi isə Həsən Seyidbəylinin "Nəsimi" filmində Nəimi obrazında. Onu digərlərindən fərqləndirən cəhətlərindən birincisi və mühümü odur ki, onunla söhbət edəndə elə bilirdin çoxdan tanıdığın doğmandır, tanışındır. Heç kimə oxşamırdı. Hərdən özünə qapanmağı da var idi. Bəzən sənət adamları toplaşıb söhbət edir, müzakirə aparırdılar. O isə bir kənara çəkilib sakit dayanırdı.



Maraqlı diksiyası var idi. Həmişə pıçıltı ilə danışırdı. Amma rolun mətnini o qədər inandırıcı ifa edirdi ki, düşünürdün ki, bu obraz ancaq belə olmalı idi, başqa cür ola bilməz. Zəif səs tembri ilə rolun qəzəbini də, sevincini də real şəkildə göstərirdi. Bir dəfə də olsun ifasında pafosa, patetikaya yol vermədi. Hansı xarakterli rol versəydilər mütləq baxımlı edirdi. Sadə və təvazökar insan idi.

"Bakıda küləklər əsir" filmində belə bir kadr var idi ki, mən ön cəbhəyə yola düşəndə atamla vidalaşıram. Bu səhnə çəkiləndə İsmayıl Osmanlını qucaqladım və hiss etdim ki, o, həqiqətən də, ağlayır. Birdən hönkürməyə başladı. O, obrazla öz arasında heç bir məsafə qoymadan tamamilə özününküləşdirmişdi. Təəssüf edirəm ki, həmin kadr yanmışdı və həmin səhnə növbəti dəfə bir qədər dəyişik çəkildi.

Onu bir qədər atama da bənzədirdim. Rolda olsa belə qaçıb onu qucaqlamaq istəyirdim. "Nəsimi" filmində Nəiminin edam səhnəsi çəkilirdi. Kinoda yeni olduğum üçün təcrübəm çox deyildi. Həyəcanlı olurdum, bəzən ehtiyatlanırdım. Fasilə vaxtı İsmayıl Osmanlıya yaxınlaşdım. Çəkilişdən, rollarımızdan danışdıq. Söhbət əsnasında narahatlığımı bildirdim və əlavə etdim ki, ata, ehtiyatlı olun birdən ipi bərk çəkərlər, sizə ziyanı dəyə bilər. Cavabında mənə "Fatimə, qorxma, mən gedirəm, ruhum sizinlədir..." dedi. O, hətta fasilə zamanı da obrazdan çıxmamışdı. Mənə Xalidə yox, Fatimə deyə müraciət etmişdi. Həmin illəri tez-tez xatırlayıram və fəxarət hissi keçirirəm. Sevinirəm ki, mənə belə böyük sənətkarla bir filmdə çəkilmək nəsib olub...".

**Şəhla Əmirli**
**kinoşünas**

# Bir taleli iki insanın sərgisi

Sərginin adı kimi posteri də maraqlı idi. "Ailə" adlı tikmə nümunəsi olan əsərdə kişi, qadın və uşaq təsviri vardı. Müəllif özünəməxsus intibah realizmi tərzində ailəsini əks etdirmiş, öz reallığını əbədiyyət kontekstinə köçürmüşdü. İnsanın olum ilə ölüm arasındakı bəzən uzun, bəzən də an qədər qısa ömürlüyünün rənglərə, saplara, ilmələrə, parçalara, kətana, kağıza ən fərqli formalarda köçünü, nüfuzunu həzin musiqi müşayiət edirdi...




Azərbaycan Milli Xalça Muzeyində aprelin 19-da açılan və tam iki ay davam edəcək "Bir taleli iki insan" adlı sərgidə mərhum rəssam, fərqli ruh və sənətkarlıq duyumuna malik Ucal Haqverdiyev və onun sənət sevdasını öz ömründə yaşadan həyat yoldaşı Yelena Haqverdiyevanın əl işləri nümayiş olunur.

Muzeyin direktoru, sərginin kuratoru Şirin Məlikova açılış nitqində hər iki müəllifin bənzərsiz rənglər dünyası barəsində iştirakçılara məlumat verdi. Bildirdi ki, Ucalı hamı böyük istedada malik rəngkar, monumentalist, incə rəsmlər yaradan qrafik kimi tanıyırdı. Yelena da fərdi dəst-xətti ilə seçilən, öz estetikasını kəşf edən istedadlı rəssamdır.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, Mədəniyyət Nazirliyi Muzey, qalereya və sərgilər şöbəsinin müdiri Nərgiz Abdullayeva, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova çıxış edərək Yelena və Ucal Haqverdiyevlərin yaradıcılığından danışdılar.

Çıxışlardan sonra iştirakçılar fərqli yaradıcılıq üslub və formalarında bir-birindən maraqlı işlərə tamaşa etdilər.





İki rəssamın ümumilikdə 54 rəngkarlıq və tətbiqi sənət əsərinin yer aldığı sərgidə Əməkdar rəssam Yelena Haqverdiyevanın Səfəvi saray xalçalarını, ov və bağ səhnələrini xatırladan təsvirlərini – mənzərələri, natürmortları, sevgililərin obrazları ilə zəngin "Xalça bağları" silsiləsini xüsusilə qeyd etməliyəm.

Sərgiyə tamaşa edənlər çoxşaxəli yaradıcılığa malik olmuş Ucal Haqverdiyevin istedadının yeni tərəflərini də özləri üçün kəşf etdilər. Rəssamın ilk dəfə nümayiş olunan bədii tikmələri, keramika məmulatları, ağac və daş üzərində işləri onun kiçik materiallar üzərində necə böyük bir məna və təsvir yükünə malik işlər yarada bildiyini göstərirdi.

Ucal Haqverdiyevin əsərləri arasında müqəddəslərin ikonoqrafiyası, həyat yoldaşı Yelenanın İtaliya İntibahı üslubunda yaratdığı portretləri, süjetli səhnələr və böyük modernist rəssamların əsərləri ilə assosiasiya doğuran kompozisiyalar da maraqla izlənilirdi. Diqqəti çəkən bir başqa məqam isə müəllifin keramika və ağacdan hazırlanan əsərlərinin böyük əksəriyyətində heyvan təsvirlərinin yer almasıdır. Ən əsası isə onların hər birində təbiətin bütün gözəlliklərinə sirli, ilk baxışdan duyulmayan semantika ilə işarə verməsidir.

Hündür, iriölçülü tablolar, monumental rəngkarlıq əsərləri yaradan və onların hər birində minimalist detalları ustalıqla həkk edən U.Haqverdiyevin digər yanda sərgilənən xırda tikmələrini, keramik təsvirlərini, zərgər dəqiqliyi ilə olan əl işlərini seyr etmək qəribə bir təzad da yaradırdı. Digər tərəfdən, onun bu cür xırda, lakin böyük əmək, vaxt və səbir tələb edən tikmələrə niyə meyil etməsi maraqlı gəlirdi. Özlüyümdə onun izahını da verdim: insanın yaratmaq qüdrəti sonsuzdur və bunun üçün, sadəcə, özünü tanımalı və hiss etməlidir. Düşünürəm ki, bu yaradıcı həDD yalnız əsl rəssama, yaradıcılıqla nəfəs alan insana xas keyfiyyətdir.

Sərgidə müəllifin yekunlaşmamış əl işləri – xristian-pravoslav dini mövzulu monumental freskaları da maraqla qarşılandı.

Tamaşaçılar Yelenanın yeni rəngkarlıq silsiləsini də diqqətlə izlədilər. "Xalça mənim üçün ancaq utilitar (praktik, tətbiqi) əşya deyil, o qoruyucu funksiyaya malikdir. Xalça evi bəzəməklə yanaşı, həm bədbəxtlikdən, bəd ruhlardan qoruyur. Məni ilhamlandıran həm çox qiymətli XVI əsr Səfəvi saray xalçalarıdır, həm də müxtəlif tayfaların damğalı xalçaları, həm də bizim nəslimizdə çox müxtəlif assosiasiyalar yaradan sovet dövrünün maşın xalçalarıdır" deyən müəllifin incə, fərdi və olduqca maraqlı üslubu xoş, nikbin bir əhval yaradırdı. Müəllifin "Xalça bağları" silsilə əsərləri xüsusilə maraq doğurdu.

Hər iki rəssamın istedadının fərqli aspektlərini bəlkə də ilk dəfə tamaşaçı ilə belə yaxın və uzunmüddətli məsafədən görüşdürən sərginin açılış mərasimində layihə çərçivəsində 3 dildə hazırlanmış "Bir taleli iki insan" adlı kataloq da təqdim olundu.

İyunun 19-dək ziyarət üçün açıq olan sərgi çərçivəsində mühazirələr, ustad dərsləri təşkil ediləcək. Düşünürəm ki, həyat və sənət yolları birgə şaxələnən və hər biri ayrı-ayrılıqda özünü rəngkarlıq və tətbiqi sənətin müxtəlif növlərində təsdiq edən sənətkarların "Bir taleli iki insan" dialoqunu "dinləmək", izləmək və zövq almaq məqamıdır...

**Həmidə Nizamiqızı**

# Realizmin sərhədsizliyi duyulanda

## Rəngkar Təranə Seyidin yaradıcılığının estetikası haqqında



Təsviri sənət məkanında bədii "izm"lərin çoxluğu bir tərəfdən həyatını yaradıcılığa həsr etmiş insanlar üçün zəngin təkanverici mənəvi gücdürsə, digər tərəfdən bu çoxluğu "unudub" öz sənət "mən"ini soraqlamaq elə də asan məsələ deyil.

Elə zamanında həmyerlisi Bəhruz bəy Kəngərlinin şöhrətinin şirinliyinə şəriklik qoşmaq istəyində olan Təranə Seyidin rənglər dünyasına meyil göstərməsinin də qarşısında çoxsaylı məşhurların adı və sənəti səddə çevrilmişdi. Başqa sözlə desək, çox rəqabətli və güzəştsiz sənət məkanında öz imzasını tanıda biləcəyinə onda müəyyən şübhələr yaranmışdı. Son məqamda "mavi arzusu"ndan vaz keçib, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunmasını da bu tərəddüdün göstəricisi saymaq olar. Amma ali təhsildən sonra da ruhunda gəzdirdiyi yaratmaq gücünü başqalarına nümayiş etdirmək istəyi ilə bacara bilmədi. Bu dəfə qətiyyət göstərməyə özündə güc tapdı və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbəsi adını qazandı...

2014-2018-ci illərdə burada Xalq rəssamı Cəlil Hüseynov, Əməkdar rəssam Fərman Qulamov və Akif Kazımovdan, eləcə də Ramil Məmmədovdan aldığı sənət dərsləri ona bu nəhayətsiz gözəllik dünyasının görünən və görünməyən tərəflərini, bədii-texniki xüsusiyyətlərini dərk etməyə imkan verdi. Burada təhsilini başa vurandan sonra Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdindəki İncəsənət Kollecində dərs deyən Təranə xanım elə tələbələrinin də yaradıcılıqda ənənə ilə müasirliyi qovuşduran rəssam kimi yetişməsinə səy göstərməkdədir.

Təranə Seyidin yaradıcılığı cəmi bir neçə ili əhatə etsə də, çəkdiyi rəsmlərdə onun bir qədər sıxıntılı "tələbə palitrası"ndan tam azad olduğunu görmək mümkündür. Elə Azərbaycan Rəssamlar İttifaqının üzvü kimi müxtəlif miqyaslı sərgilərdə uğurlu iştirakı da onun yaradıcılıq axtarışlarından xəbər verir. Qənaətimizcə, bu prosesdə ən önəmlisi rəssam üçün janr məhdudiyyətinin olmamasıdır. Müəllifin ona tanış olan məlum janrların "estetik xəritəsi"ni yaradıcı potensialına müvafiq genişləndirməkdə davam etməsini isə, bir rəssam kimi fərdi dəst-xəttinin formalaşması istiqamətində uğurlu addım hesab etmək olar. Kətan səthinə özünəməxsus texniki münasibət göstərən və daha çox palitra bıçağı (mastixin) vasitəsilə kompozisiyanın bədii tutumda gerçəkləşməsinə çalışan rəssamın inamlı yaxı improvizələri ilə ənənəvi qalınlığa malik olan astarın üzərində yeni bir "çalar qatı" yaratdığını görmək mümkündür. Etiraf edək ki, müəllifin kətana bu cür fərdi və özünəməxsus yanaşması Azərbaycan rəssamlığında az rast gəlinən haldır.





Kətana bu cür yanaşma son nəticədə kompozisiyanı təşkil edən müxtəlif ayrıntı-çalarların həm qabarıq, həm də işartı tutumunda görünməsini şərtləndirir. Rəssam adətən rəng qatının pastoz tutumuna – duyulası qalınlığına nail olan müəllifin məna-məzmun daşıyıcıları olan təsvir elementlərinin fakturasını – duyumsallığını onun bu bədii-texniki prosesə dəyərli töhfəsi hesab etmək mümkündür. Müəllifin "Xurşidbanu Natəvan", "Nar ağacı", "I Şah Təhmasib", "Eşq", "Yuxu", "Tək ağac", "Bakı mənzərəsi", "Arzularımın gəmisi", "Göygöl", "Sahil", "Balıq", "Xınalıq", "Çay dəsgahı", Tutuquşular", "Narlar", "Zənci qız" və s. lövhələrində yuxarıda vurğuladığımız bədii-estetik dəyərləri müşahidə etmək mümkündür.

Azərbaycan təsviri sənətində indiyə qədər Natəvan ünvanlı əsərlər kifayət qədər çox yaradılsa da, Təranə xanım onun portretinə müraciət etməklə, "Xan qızı"nın obrazına yeni çalarlar əlavə etməyə nail olub. Milli naxışlardan tərtib edilmiş haşiyə daxilində təqdim olunmuş Natəvanın portreti nikbin boyalardan "hörülmüş" ümumi kolorit ilə birlikdə çox duyğulandırıcı görünür. Şairənin nurlu çöhrəsinin Şuşanın rəmzinə çevrilmiş xarıbülbüllərlə vəhdətdə, yerli nemətlərlə təmasda görüntüyə gətirilməsi cəlbedici əsərin yaranmasını şərtləndirib...

"Zənci qız" əsərində isə afrikalı gözəli milli geyimdə görüntüyə gətirən rəssam ilk növbədə obrazın çöhrəsindəki qara rəngin "işığı"nı göstərməyə çalışıb. Qənaətimizcə, müəllif Azərbaycan rəssamlığında mövcud olan (Əşrəf Murad və Qəyyur Yunusun əsərləri) qara rəngin estetikasına özünəməxsus münasibətlərə bir qədər də fərqli töhfə verməklə portretin duyğulandırıcılığını əldə etməyə nail olub.

Rəssam "Çay dəsgahı" tablosunun kompozisiya tərtibində milli naxışlardan geniş istifadə edib. Onun butalı parça fonunda görüntüyə gətirdiyi mis samovarı əhatələyən və çay süfrəsinə zənginlik bəxş edən digər atributlar nə qədər çox olsa da, geniş yaxılarla əldə olunan bədii bütövlüyün sayəsində nikbin koloritli kompozisiya kifayət qədər gözoxşayandır.

"Tək ağac" tablosunun da kompozisiya həlli diqqətçəkəndir. Azman ağacın ətraf mühitdən təcrid olunması məqsədli olub, bilavasitə, payız libasına bələnmiş varlığın möhtəşəmliyini başqalarına da sərgiləmək niyyəti daşıyır. İfadəli konfiqurasiyası ilə gözoxşayan palıdın günəş şüaları altında rəngdən-rəngə düşməsində məkana rəngkar-rəssam baxışının mövcudluğunun mühüm rol oynadığı birmənalıdır. Ümumi səthdən "boylanan" rəng zərrəciklərinin "işığa" çevrilməsindəndir ki, ağacın aşağısından zirvəsinə kimi davam edən yaxı "oyunu" tablonun dominantı kimi qəbul olunur.

Rəssamın Bayıl qəsəbəsindəki emalatxanasının paytaxtımızı günün müxtəlif vaxtlarında müşahidə etməyə imkan verməsi vaxtaşırı onun Bakı ünvanlı əsərlər yaratmasına vəsilə olub. "Bakı gecəsi", "Sahil", "Bakı limanı" və s. əsərlərdə "küləklər şəhəri"nin bir-birindən fərqli ovqat daşıyıcılığına malik görüntüsünü görmək mümkündür. "İşıqlar dənizi"ndə çimən, ay işığı altında "mürgüləyən" liman qurğularına müəllifin bədii yanaşmasında məkanların lirik-romantik tutumda təqdimatı lirik ovqatlıdır.

Təranə Seyidin əksər əsərlərinin motiv seçimini çox vaxt mövzu kasadlığından şikayətlənənlərə nümunə göstərmək də olar. Onun qənaətincə, rəssam gözü ilə ətrafımıza nəzər yetirsək, gerçəklikdə müşahidə etdiyimiz obyekti və yaxud əşyanı ilham qaynağına çevirmək olar. Deyilənlərin təsdiqini onun "Arzularımın gəmisi", "Balıq", "Narlar", "Çılçıraq", "Güllər", "Hovuz", "Köhnə avtomobil", "Motosiklet" və b. əsərlərin timsalında görmək mümkündür. Çox vaxt gözümüzdə adiləşənlərə duyğulandırıcı münasibət göstərən rəssam, onları həm də mənalandıra bildiyindən, bədii görkəm almış bu əşya və varlıqlar düşündürücü baxılır.

Təranə Seyidin şərh etdiyimiz əsərlərinin dolğunluğu ilə fərqlənən estetikası göstərir ki, realizm çoxlarının düşündüyü kimi məhdud yox, hər bir yaradıcının təxəyyülünün pərvazlandıra biləcək əbədiliyi danılmaz olan bədii prinsipdir. Elə bu sərhədsizliyin nəticəsidir ki, rəssamın haqqında söz açdığımız müxtəlif janrlı rəngkarlıq əsərləri belə yaddaqalandır...

**Ziyadxan Əliyev**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi — 25-28 aprel

### Azərbaycan

**25 aprel 1905** – Ədəbiyyatşünas, şair, tərcüməçi Mikayıl Həsən oğlu Rəfili (1905 – 25.4.1958) Goranboy rayonunun Borsunlu kəndində doğulub. Rus ədəbiyyatından tərcümələr edib. "Səbuhi" filminin (1941) ssenari müəllifidir.

**25 aprel 1911** – Əməkdar artist, müğənni Elmira Ağa qızı Axundova (1911 – 26.11.1998) Bakıda anadan olub. Opera və Balet, Musiqili Komediya teatrlarında çalışıb.

**25 aprel 1914** – Xalq artisti Məhəmməd İsmayıl oğlu Burcəliyev (1914 – 25.11.1994) Şəkidə doğulub. 1935-ci ildən Gəncə Dövlət Dram Teatrının aktyoru olub, teatrda direktor (1950-52) işləyib, tamaşalara quruluş verib. "Dəli Kür", "Gözlə məni", "Qəm pəncərəsi" və s. filmlərdə çəkilib.

**25 aprel 1933** – Azərbaycan peşəkar milli teatrının 60 illiyi təntənəli şəkildə qeyd edilib.

**25 aprel 1942** – Əməkdar mədəniyyət işçisi Şirin Həsən oğlu Rzayev (1942 – 14.4.2020) Gəncədə doğulub. Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının direktoru olub.

**26 aprel 1908** – Görkəmli yazıçı, ədəbiyyatşünas, Əməkdar elm xadimi Mir Cəlal Əli oğlu Paşayev (1908 – 28.9.1978) Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olub. "Bir gəncin manifesti", "Dirilən adam", "Yaşıdlarım" romanlarının, povest və hekayələrin, "Azərbaycanda ədəbi məktəblər" monoqrafiyasının müəllifidir. BDU-nun professoru olub.

**26 aprel 1947** – Kinorejissor, Əməkdar incəsənət xadimi Gülbəniz Yusif qızı Əzimzadə (1947 – 7.12.2006) Bakıda anadan olub. Filmləri: "Qaladan tapılan mücrü", "Avqust gələndə", "Ötən ilin son gecəsi", "Qətl günü" və s.

**26 aprel 2021** – Əməkdar artist, müğənni Baloğlan Xanoğlan oğlu Əşrəfov (8.10.1951 – 2021) vəfat edib.

**27 aprel 1940** – Folklorşünas alim, professor Bəhlul Ağabala oğlu Abdulla (1940-2011) Lerik rayonunun Ləhiran kəndində anadan olub.

**27 aprel 1951** – Əməkdar artist, tanınmış kamança ifaçısı, Ədalət Səfərəli oğlu Vəzirov (1951 – 5.10.2002) anadan olub. Moskvada Beynəlxalq musiqi müsabiqəsinin (1974) qalibi olub. Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) müəllim işləyib.

**27 aprel 2007** – Məşhur violonçel ifaçısı, dirijor, SSRİ Xalq artisti Mstislav Leopoldoviç Rostropoviç (27.3.1927 – 2007) vəfat edib. Bakıda doğulan sənətkar dünyanın bir çox ölkələrinin mükafatlarına, o cümlədən Azərbaycanın ən ali təltifinə – "Heydər Əliyev" ordeninə layiq görülüb.

**27 aprel 2020** – Azərbaycanda kitabxanaşünaslıq elmi məktəbinin banisi, tarix elmləri doktoru, Əməkdar elm xadimi, professor Abuzər Alı oğlu Xələfov (25.12.1931 – 2020) vəfat edib. 50 ildən çox BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri işləyib.

**28 aprel 1914** – Xalq yazıçısı Qılman İlkin (Qılman İsabala oğlu Musayev; 1914 – 6.11.2009) Bakının Mərdəkan kəndində doğulub. Əsərləri: "Şimal küləyi", "Dəniz qapısı" və s. "Kölgələr sürünür", "Yenilməz batalyon" filmlərinin ssenarisini yazıb.

**28 aprel 1916** – Teatr rəssamı, Əməkdar incəsənət xadimi Əsgər Məmmədismayıl oğlu Abbasov (1916 – 9.2.1970) anadan olub. Musiqili Komediya Teatrının baş rəssamı işləyib.

**28 aprel 1916** – Bəstəkar, Əməkdar incəsənət xadimi Ədilə Hacağa qızı Hüseynzadə (1916-2005) anadan olub. Simfonik əsərlərin, romansların, "Duyğular" vokal silsiləsinin müəllifidir.

**28 aprel 1917** – Xalq artisti Məhluqə Sadıqova (1917 – 15.8.2003) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, uzun illər radioda "Bulaq" verilişinin əvəzsiz aparıcısı olub. "Yenilməz batalyon", "Yeddi oğul istərəm", "Bakıda küləklər əsir" və s. filmlərdə çəkilib.

**28 aprel 1920** – Məşhur tarzən, Xalq artisti Hacı Məmməd oğlu Məmmədov (1920 – 2.8.1981) Şamaxıda doğulub. Azərbaycan Dövlət Filarmoniyasında çalışıb. Eyni zamanda tanınmış həkim-cərrah olub.

**28 aprel 1920** – Bəstəkar, dirijor və pedaqoq Məmməd Qəzənfər oğlu Məmmədov (1920 – 28.1.1987) anadan olub.

**28 aprel 1921** – Tanınmış dilçi alim, professor Məmməd Tağı oğlu Tağıyev (1921 – 28.9.1994) Samux rayonunda doğulub. "Azərbaycanca-rusca lüğət"in (4 cild) redaktoru, "Rusca-azərbaycanca frazeoloji lüğət"in tərtibçisidir.

**28 aprel 1925** – Yazıçı, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Rüstəm oğlu Əliyev (1925 - 6.7.1994) Lerik rayonunun Kürdəsər kəndində doğulub. "Dağlar oğlu", "Torpağın ətri" və s. romanların müəllifidir.

**28 aprel 1956** – Tanınmış tarzən Gülağa Tapdıq oğlu Zeynalov (1956 - 2.1.2015) Şuşa şəhərində doğulub. Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri olub.

### Dünya

**25 aprel 1928** – SSRİ Xalq artisti Yuri Vasilyeviç Yakovlev (1928 – 30.11.2013) anadan olub. Filmləri: "İdiot", "Qusar balladası", "Xoş təsadüf və ya həmişə təmizlikdə", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.

**26 aprel** Beynəlxalq Əqli Mülkiyyət Günüdür (World İntellectual Property Day). 2000-ci ildə Dünya Əqli Mülkiyyət Təşkilatının təşəbbüsü ilə təsis edilib.

**26 aprel 1798** – Fransız rəssamı Ejen Delakrua (Ferdinand Victor Eugene Delacroix; 1798-1863) anadan olub. "Barrikadada azadlıq", "Xiosda qətliam" və s. tarixi tabloların müəllifidir.

**26 aprel 1886** – Tatar ədəbiyyatının klassiki, şair və yazıçı Qabdulla (Abdulla) Tukay (1886-1913) anadan olub.

**27 aprel 1878** – Tacik milli ədəbiyyatının banisi, yazıçı və şair Sədrəddin Ayni (Səid-Muradzadə; 1878-1954) anadan olub. Özbək dilində də yazıb. Əsərləri: "Odina", "Dohunda", "Qullar".

**28 aprel 1848** – Danimarka bəstəkarı Lüdviq Şitte (Ludvig Schytte; 1848-1909) anadan olub. "Gero", "Məmlük" operalarının müəllifidir.

**28 aprel 1902** – Norveç yazıçısı Yohan (Johan) Borgen (1902-1979) anadan olub. Romanları: "Yay yoxdur və olmayacaq", "Məhəbbət cığırı", "Mən" və s.

**Hazırladı: Vüqar Orxan**

№31 (1904)
27 aprel 2022
www.medeniyyet.az

# "Kitabi-Dədə Qorqud" özbək dilində

Azərbaycan xalqının və Türk dünyasının böyük söz abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanı özbək dilində nəşr olunub. Nəşr Daşkənddə fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) "Azərbaycan ədəbiyyatı özbək dilində" layihəsi əsasında, Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə ərsəyə gəlib.



Aprelin 20-də Beynəlxalq Muğam Mərkəzində (BMM) özbək dilinə tərcümə edilmiş "Kitabi-Dədə Qorqud" dastanının təqdimat mərasimi keçirilib. Təqdimatda dövlət rəsmiləri, elm və mədəniyyət xadimləri iştirak edirdi.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bildirdi ki, xalq və mədəniyyət eyni anlayış altında birləşir: mədəni kimlik. Hər bir mədəniyyət sözlə başlayır, daha sonra söz cümlə, cümlə isə kitab olur. Böyük xalqlar isə bu kitabı dastana çevirir: "Kitabi-Dədə Qorqud" dastanı böyük türk toplumunu, türk xalqlarını, onların tarixini, coğrafiyasını özündə ehtiva edir. Qloballaşma dövrünün əsaslarından biri də eyniləşdirməkdir. Mədəni dəyərləri dərin olan xalqlar bu qloballaşmada seçiləcək. Dünyada mədəniyyəti zəngin və çalarlı olan xalqlardan biri də türk toplumudur".

Qeyd olundu ki, ulu öndər Heydər Əliyev "Dədə Qorqud" dastanının araşdırılmasına, təbliğ olunmasına böyük diqqət göstərirdi. Məhz ümummilli liderin sayəsində 1975-ci ildə "Dədə Qorqud" filmi çəkildi, 2000-ci ildə dastanın 1300 illiyi türk dövlətlərinin iştirakı ilə ölkəmizdə, eləcə də UNESCO səviyyəsində qeyd edildi.

Elnur Əliyev dastanın özbək dilinə tərcümə olunmasının iki ölkə arasında ədəbi-mədəni əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyini vurğuladı.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli dastanın özbək dilində nəşrini böyük mədəni hadisə adlandırdı: "Həsab edirəm ki, dünya dastanlarını tərəzinin bir gözünə, "Kitabi-Dədə Qorqud"u isə digər gözünə qoysaq, sözsüz ki, "Kitabi-Dədə Qorqud" daha ağır gələr. Bu dastan böyük bir mədəni və ədəbi hadisədir. Ötən il kitab İtaliyada italyan dilində nəşr olundu. Kitabın Drezden və Vatikan nüsxələri Azərbaycan türkcəsində qələmə alınıb. Bu kitab türk xalqları arasında mənəviyyat körpüsüdür...".

Heydər Əliyev adına AMM-in direktoru Samir Abbasov Azərbaycan və Özbəkistan mədəniyyət nazirlərinin ön sözü ilə işıq üzü görən nəşrin əhəmiyyətini vurğuladı, dastanın tərcüməçisi, tanınmış özbək ədəbiyyatşünası, yazıçı Babaxan Şərifin əməyini xüsusi qeyd etdi. Bildirdi ki, yeni nəşr Özbəkistanın aparıcı kitabxanalarına paylanılıb. Dastan haqqında özbək dilində "Wikipedia" səhifəsi də yaradılıb.

Kitabın məsləhətçisi və elmi redaktoru, millət vəkili, akademik Nizami Cəfərov nəşri ümumtürk hadisəsi adlandırdı. Bildirdi ki, dastan əsrlər keçməsinə baxmayaraq, türk xalqlarının taleyində mühüm yerə malikdir. Dədə Qorqudla bağlı rəvayətlər dastanın özündən qat-qat çoxdur. Təkcə "Təpəgöz" süjetinin 300-dən artıq nümunəsi var.

Babaxan Şərif Özbəkistan-Azərbaycan mədəni-ədəbi əlaqələrindən söz açaraq bu günlərdə Şuşaya səfəri ilə bağlı təəssüratlarını bölüşdü. Vurğuladı ki, Dədə Qorqudu sevmək vətəni sevmək, ədaləti sevmək deməkdir.

Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov Azərbaycanla Özbəkistan arasında tarixi dostluq, qardaşlıq münasibətləri zəminində inkişaf edən və dərinləşən mənəvi əlaqələrdən söz açdı.

Təqdimatın bədii hissəsində BMM-in solistləri Abgül Mirzəyev və Nisbət Sədrayevanın ifasında muğamlarımızdan ibarət konsert proqramı təqdim edildi.

**Lalə Azəri**

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda Türkiyənin milli bayramı qeyd edilib

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda Türkiyə Cümhuriyyətinin milli bayramına, 23 Aprel – Milli Suverenlik və Uşaq Gününə həsr olunmuş "Türk dünyası uşaqlarının birliyi" adlı şənlik və azərbaycanlı rəssam Kövsər Qurbanın rəsmlərindən ibarət sərgi keçirilib.



Fondun prezidenti Günay Əfəndiyeva tədbirdə çıxış edərək bildirib ki, hər bir dövlətin ən dəyərli varlığı sülhün, sevginin, ümidin təmsilçiləri olan uşaqlardır: "Bu gözəl gündə bayramın həyəcanını sizinlə paylaşaraq, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Türkmənistandan olan uşaqların simasında bütün Türk dünyasının uşaqlarını birlikdə sülh, dostluq və qardaşlıq mesajlarını yaymağa dəvət edirəm. Uşaqlarımızın təhsil almaları son dərəcə önəmlidir. Bu gün onların elmə və inkişaf edən texnologiyalara açıq olmaları, oxumaları, araşdırmaları, yeniliklərlə maraqlanmaları son dərəcə vacibdir. Böyüklərin də vəzifəsi onlara Vətənini, millətini, tarixini, mədəniyyətini və adət-ənənələrini sevdirməkdir. Biz Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu olaraq bu şərəfli missiyanı qururla və zövqlə həyata keçiririk. Ən əsas məqsədlərimizdən biri Türk dünyasının maddi-mədəni dəyərlərini gələcək nəsillərə ötürməkdir...".

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı tədbirin əhəmiyyətindən söz açaraq deyib: "23 aprel Mustafa Kamal Atatürkün milli mübarizənin məşəlini yandırdığı gündür. Milli suverenlik bu mənada Atatürkün uşaqlara "Vətəninizə, kimliyinizə, bayrağınıza sahib çıxın" deməsinin mesajıdır və buna görə də çox dəyərlidir...".

Tədbirə TÜRKPA-nın Baş katibi Mehmet Surayya Er, TÜRKPA-nın Sosial, mədəni və humanitar məsələlər komissiyasının toplantısında iştirak etmək üçün Bakıya gələn türk dövlətləri parlamentlərinin deputatları, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda təmsil olunan ölkələrin diplomatları qatılıblar.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Türkmənistanı təmsil edən uşaqlar tərəfindən Türk dünyasının həmrəyliyini ifadə edən mahnılar oxunub, milli geyimlərdə rəqslər nümayiş etdirilib, milli alətlərdə musiqilər ifa olunub, şeirlər səsləndirilib. Qonaqlar azərbaycanlı balaca rəssam Kövsər Qurbanın əl işlərinə də baxıblar.

Tədbirdə iştirak edən uşaqlara sertifikatlar və hədiyyələr təqdim edilib.

# Ölkəmiz 59-cu Venesiya Biennalesində təmsil olunur

əvvəli səh. 1-də





Qeyd edək ki, bu il Venesiya Biennalesinin əsas layihəsi ilk dəfə italyan sənətşünas Çeçiliya Alemaninin kuratorluğu ilə keçirilir. O, Venesiya Biennalesinin tarixində əsas sərginin bədii rəhbəri olan sayca beşinci qadındır. Maraqlıdır ki, onun tərtib etdiyi 213 nəfərlik iştirakçı siyahısında cəmi 10 faizi kişilər təşkil edir. Venesiyaya dəvət alanlardan 180 nəfər ilk dəfə bu mötəbər sərgiyə qatılıb.

Biennalenin mərkəzi sərgisində 79 milli pavilyon qurulub. O cümlədən beş ölkə – Kamerun, Namibiya, Uqanda. Nepal və Oman ilk dəfə burada təmsil olunur. Mərkəzi Asiyadan Qazaxıstan, Qırğızıstan və Özbəkistan da müəyyən fasilədən sonra Venesiya Biennalesinə qatılması yenilikdir. Rusiya isə məlum sanksiyalar səbəbindən ilk dəfə sərgidən kənarda qalıb. Yalnız Sankt-Peterburqdan bir rəssam fərdi şəkildə sərgidə iştirak edir. Əvəzində Ukrayna rəssamları üçün Venesiya Biennalesi çərçivəsində xüsusi sərgi proqramı ("Bu Ukraynadır: azadlığı qoruyaraq!") təşkil olunub.

Budəfəki serginin ümumi mövzu-başlığı olaraq – "Yuxuların südü" – İkinci Dünya müharibəsində Meksikaya mühacirət etmiş britaniyalı rəssam, sürrealist yazar Leonora Karrinqtonun eyniadlı kitabının adı seçilib. Sərginin əsas mövzuları isə insan bədənin metamorfozları, COVİD-19 pandemiyasının aktuallaşdırdığı insanlar və texnologiyalar arasında münasibətlərdir.

Biennalenin fəxri mükafatçıları – incəsənətə töhfələrinə görə "Qızıl şir"in sahibləri isə bu dəfə Almaniyadan heykəltəraş Katarina Friç və Çili rəssamı Sesiliya Vikunya olub.

59-cu Venesiya Beynəlxalq İncəsənət Sərgisi noyabrın 27-dək davam edəcək.

**V.Kamal**

# Kann Film Festivalı 75-ci dəfə keçiriləcək



Avropanın ən nüfuzlu kino müsabiqəsi sayılan Kann Film Festivalı 75 illiyini qeyd edir. Bu il festival mayın 17-dən 28-dək davam edəcək.

Festivalın əsas proqramında 23 film yer alıb. Onlardan 11-nin rejissoru qadındır. Münsiflər heyəti yaxın günlərdə açıqlanacaq.

75-ci Kann Film Festivalının afişası isə artıq təqdim olunub. Afişa 1998-ci ildə avstraliyalı Piter Veirin çəkdiyi və Cim Kerrinin baş rolda oynadığı məşhur "Truman şousu" filmindən rəmzi səhnəni əks etdirir. Afişada səmaya doğru ucalan pillələr əks olunub.

# Animasiyanın inkişafına verdiyi töhfəyə görə

## Azərbaycanlı rejissor mükafata layiq görülüb



Özbəkistanın paytaxtı Daşkənddə ilk dəfə təşkil olunan Beynəlxalq animasiya forumu başa çatıb. Foruma Mərkəzi Asiya ölkələri, Azərbaycan, Gürcüstan, İsrail, Ukrayna və Rusiyanın animasiya mütəxəssisləri, rəssam-multiplikatorlar qatılıblar.

Ölkəmizi tədbirdə "Animafilm" Beynəlxalq animasiya festivalının direktoru Rəşid Ağamalıyev və tanınmış rejissor Elçin Hami Axundov təmsil edib. Rəşid Ağamalıyev həm də münsiflər heyətində yer alıb.

Forumun bağlanış mərasimində rejissor Elçin Hami Axundov "Animasiyanın inkişafına verdiyi töhfəyə görə" mükafatını alıb. Ona mükafatı forumun direktoru Dante Rustav təqdim edib.

Festival çərçivəsində "Azərbaycan animasiyasının 50 illiyi" adlı proqramı ilə "Cırtdan", "Tıq-tıq xanım", "Cırtdan-pəhləvan", "Anam ağaca çıxıb", "İthaf" və digər filmlər təqdim olunub.

Xronoqraf

# Tarixdə bu gün

*Zamanın səhifələrində qalan olaylar, faktlar...*

### 194 il əvvəl...

**26 aprel 1828-ci ildə** İranla müharibədən qalib çıxaraq Azərbaycanın şimalını özünə birləşdirən Rusiya Qafqazdakı ikinci rəqibinə – Osmanlı dövlətinə savaş elan edib. Müharibə bir il sonra (Ədirnə sülhü, 1829) Rusiyanın nisbi üstünlüyü ilə başa çatdı. Müharibənin nəticəsi kimi Şərqi Anadoludakı ermənilərin bir hissəsi Cənubi Qafqaza – İrəvan xanlığına və Gürcüstana köçürüldü.

### 181 il əvvəl...

**25 aprel 1841-ci ildə** çar Rusiyası Qafqaz Baş İdarə Şurasının qərarı ilə Qazax və Borçalı mahallarında azərbaycanlı bəy və ağalar torpaq sahibliyindən məhrum edilib, mülkləri müsadirə olunub. Eyni qərar may ayında Xəzəryanı bölgələr üçün də verildi. Bunun ardınca bölgələrdə etirazlar başlandı və 1842-ci ildə ağa-bəy torpaqlarının müsadirəsi dayandırıldı.

### 145 il əvvəl...

**24 aprel 1877-ci ildə** Rusiya Qafqazda və Balkanlarda mövqelərini möhkəmlətmək məqsədilə Osmanlı ilə növbəti müharibəyə başlayıb. Bir il sürən müharibə Osmanlının məğlubiyyəti ilə nəticələndi. San-Stefano sülh müqaviləsinə (1878) əsasən, Rusiya Türkiyənin ermənilər yaşayan bir neçə bölgəsini (Qars, Ərdahan), habelə Osmanlının nəzarətində olan Bessarabiyanın (indiki Moldova ərazisi) bir hissəsini özünə birləşdirdi.

### 113 il əvvəl...



**27 aprel 1909-cu ildə** Osmanlı dövlətində növbəti saray çevrilişi baş verib. 1876-cı ildən hakimiyyətdə olan Sultan II Abdülhamit taxtdan salınıb, onun yerinə qardaşı – şahzadə Mehmet Reşat (V Mehmet) taxta çıxarılıb.

### 104 il əvvəl...

**25 aprel 1918-ci ildə** Bakıda bolşevik hökuməti – S.Şaumyanın sədrliyi ilə "Xalq Komissarları Soveti" yaradılıb. Tarixə "26 Bakı komissarı" adı ilə düşən qurum Leninin tapşırığı ilə Azərbaycanı sovetləşdirməli idi. "Bakı Kommunası"nda aparıcı vəzifələri ermənilər tuturdular, hökumətdə yeganə azərbaycanlı Məşədi Əzizbəyov idi.

### 103 il əvvəl...

**25 aprel 1919-cu ildə** Azərbaycanın cənub bölgəsində bolşeviklər tərəfindən qızışdırılan rus əhalisinin Xalq Cümhuriyyətinə qarşı qiyamı başlayıb. Qiyamçılar bölgəni "Muğan Sovet Respublikası" elan ediblər. Qiyam iyul ayında Cümhuriyyət qüvvələri tərəfindən yatırıldı.

### 102 il əvvəl...

**28 aprel 1920-ci ildə** Azərbaycan Xalq Cümhuriyyəti süqut edib, Azərbaycan Sovet Sosialist Respublikasının yaradıldığı elan olunub. Bir gün öncə bolşevik Rusiyasının 11-ci ordusu Bakıya daxil olmuş, Azərbaycan K(b)P MK və Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu hakimiyyəti təhvil vermək barədə Cümhuriyyət Parlamentinə ultimatum vermişdi. Parlament gərgin müzakirələrdən sonra ultimatumu qəbul etmişdi. Ölkədə formal hakimiyyət azərbaycanlı kommunistlərdən ibarət Müvəqqəti İnqilab Komitəsinə (sədr – Nəriman Nərimanov, üzvlər Əliheydər Qarayev, Qəzənfər Musabəyov, Həmid Sultanov və b.) verilib. Real hakimiyyət Moskvaya tabe olan AK(b)P MK-ya məxsus idi.

### 77 il əvvəl...

**28 aprel 1945-ci ildə** İtaliyanın faşist diktatoru, 1922-ci ildən ölkəyə rəhbərlik edən Benito Mussolini italyan partizanlar tərəfindən öldürülüb. 1943-cü ildə Almaniya İtaliyanı işğal edəndən sonra Mussolini Hitlerin idarə etdiyi marionet hökumətin başçısına çevrilmişdi.

### 56 il əvvəl...

**26 aprel 1966-cı ildə** Özbəkistanın paytaxtı Daşkənddə güclü zəlzələ olub. 8 bal gücündə zəlzələ nəticəsində şəhərdə 30 mindən artıq tikili qismən və tamamilə dağılmışdı. İnsan tələfatı barədə nə o vaxt, nə də sonra konkret rəqəm açıqlanmadı.

### 36 il əvvəl...



**26 aprel 1986-cı ildə** Ukraynada Çernobıl AES-in 4-cü blokundakı partlayış nəticəsində nüvə əsrinin ən dəhşətli qəzası baş verib. Öldürücü radiasiya buludu Ukrayna, Belarus və Rusiyanın bölgələrini, sonra isə Norveçdən Qafqaza və Volqa çayınadək geniş ərazini əhatə etdi. AES-in 30 kilometr radiusunda əhali köçürüldü, həmin ərazi "ölü zona" elan edildi. Çernobıl qurbanlarının dəqiq uçotu aparılmasa da, ötən müddətdə ölümcül şüalanma nəticəsində on minlərlə insan vəfat edib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB** 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1202
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.
**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641